QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 092 (5080) **24 may** 2016-cı il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: “Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir”

*“Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır”*

Səh 3




9

ASPA Monitorinq Komitəsinin iclasında Azərbaycan torpaqlarının işğalı faktı bir daha sübut edilib



7

Novruz Məmmədov: “Dağlıq Qarabağ münaqişəsi danışıqlar və sülh yolu ilə həll olunmalıdır”



13

“Metsamor” təhlükəsinə qarşı Beynəlxalq Koalisiya yaradılır



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

24 may 2016-cı il

# Azərbaycan ilə Çin arasında bütün sahədə əlaqələr uğurla inkişaf edir

## *Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsini qəbul edib*



**Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi, Kommunist Partiyası Siyasi Şurasının üzvü, Mərkəzi Komitəsinin siyasi və hüquqi məsələlər komissiyasının katibi - Təhlükəsizlik Şurasının katibi Menq Jianzunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Prezident İlham Əliyev Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi Menq Jianzunun ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi, bu səfərin iki ölkə arasındakı dostluq münasibətlərinin gələcəkdə daha da möhkəmlənməsi işinə töhfə verəcəyini dedi. Əməkdaşlığımızın bir çox sahələri əhatə etdiyini deyən dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan ilə Çin arasında siyasi, iqtisadi, nəqliyyat, ticarət sahələrində və humanitar sahədə əlaqələr uğurla inkişaf edir. Hüquq mühafizə və təhlükəsizlik sahələrində də əməkdaşlığımızın genişləndirilməsi ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə töhfə verə bilər.**



Yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən xüsusi nümayəndə Menq Jianzu Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. Qeyd etdi ki, Azərbaycana səfərə gələn nümayəndə heyətinin tərkibinə Çinin bütün hüquq mühafizə, təhlükəsizlik orqanlarının və Xarici İşlər Nazirliyinin rəhbər nümayəndələri daxildir. Çin xalqının ulu öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə böyük hörmət bəslədiyini bildirən Menq Jianzu dedi: "Heydər Əliyev sözün əsl mənasında Azərbaycan xalqının ümummilli lideridir. Siz onun siyasətini uğurla davam etdirirsiniz. Azərbaycanda Sizin rəhbərliyinizlə iqtisadiyyat sürətlə inkişaf edir, ictimai-siyasi sabitlik tam təmin olunub, əhalinin əhval-ruhiyyəsi yüksəkdir".

Çinin Azərbaycan ilə təhlükəsizlik, hüquq mühafizə sahələrində, terrorizmə, transmilli iqtisadi cinayətkarlığa, kibercinayətkarlığa qarşı mübarizə, Böyük İpək Yolu boyunca təhlükəsizliyin təmin olunması və digər sahələrdə əməkdaşlığı genişləndirməsində maraqlı olduğunu deyən Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi bildirdi ki, təhlükəsizlik sahəsində əməkdaşlıq regional əməkdaşlığa da töhfəsini verə bilər. Menq Jianzu Böyük İpək Yolunun perspektivli layihə olduğunu vurğuladı.

Azərbaycan Prezidentinin Çinə dövlət səfərinin uğurlu keçdiyini, gələcək əməkdaşlığın genişləndirilməsi istiqamətində səfər zamanı mühüm sənədlərin imzalandığını xatırladan və Çin Xalq Respublikasının Sədri Si Cinpinlə Azərbaycan Prezidenti arasında dostluq əlaqələrinin yarandığını deyən Menq Jianzu vurğuladı ki, Azərbaycan Çin üçün dost və qardaş ölkədir. O bildirdi ki, səfərinin əsas məqsədi Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı iki ölkə liderləri arasında əldə olunmuş razılaşmaların həyata keçirilməsinə təkan verməkdir. Menq Jianzu dedi ki, Azərbaycana səfərdən əvvəl o, Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşüb. Si Cinpin onunla söhbətində Azərbaycanın gözəl ölkə olduğunu söyləyib və özünün də Azərbaycana səfər etmək arzusunda olduğunu deyib.

Ulu öndər Heydər Əliyev və ölkəmiz haqqında xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, Ümummilli Lider Çin ilə ikitərəfli münasibətlərin təməl prinsiplərinin qurulmasında müstəsna rol oynayıb. Dövlətimizin başçısı bildirdi ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət, eləcə də Çin ilə münasibətlərin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən siyasət bu gün uğurla davam etdirilir. Çinin Azərbaycan üçün dost və qardaş ölkə olduğunu və Çin ilə münasibətlərin inkişaf etdirilməsinin xarici siyasətimizdə əsas istiqamətlərdən biri olduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, bu ölkəyə dövlət səfəri zamanı keçirilən görüşlər və aparılan səmərəli danışıqlar bunu bir daha təsdiq etdi.

Dövlətimizin başçısı Azərbaycandan keçərək Çindən Avropaya dəmir yolu ilə yük daşınması sahəsində əməkdaşlığımızın yaxşı perspektivlərinin olduğunu vurğuladı və bu sahədə fəal iş aparıldığını dedi. Azərbaycan ilə Çin arasında terrorizm, ekstremizm və separatizmlə mübarizə sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin erməni terrorizmi və separatizmi ilə üzləşdiyini bildirdi və qeyd etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Dövlətimizin başçısı Azərbaycanın Çinin ərazi bütövlüyünü dəstəklədiyini bir daha vurğuladı.

Prezident İlham Əliyev Çinin daha çox şirkətlərinin Azərbaycanın iqtisadiyyatında iştirakında və turizm sahəsində əməkdaşlığın genişləndirilməsində ölkəmizin maraqlı olduğunu dedi. Dövlətimizin başçısı Şanxay Əməkdaşlıq Təşkilatında Azərbaycana dialoq üzrə tərəfdaş statusunun verilməsində Çinin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi və bu təşkilatla fəal əməkdaşlığın aparılmasının Azərbaycanın xarici siyasətində prioritetlərdən biri olduğunu vurğuladı.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Si Cinpini onun üçün münasib vaxtda ölkəmizə rəsmi səfərə dəvət etdi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Vyanada keçirilən son görüşün nəticələri müzakirə olundu. Çin tərəfi münaqişənin tezliklə sülh yolu ilə həllində maraqlı olduğunu bildirdi. Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi Menq Jianzu qeyd etdi ki, ölkəsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək istiqamətindəki səylərinə hörmətlə yanaşır.

# İlham Əliyev: "Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir"

*"Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır"*




***Mayın 23-də İstanbulda Dünya Humanitar Sammiti işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Sammitdə iştirak edirlər. Dünya Humanitar Sammiti liderlərin səhər yeməyi ilə başladı. Sonra Sammit iştirakçıları birgə foto çəkdirdilər. Sammitin açılış mərasimi dünyanın humanitar fəlakət bölgələrində mövcud vəziyyəti və həmin ərazilərə yardımların çatdırılmasını əks etdirən təqdimatla davam etdi.***

BMT-nin baş katibi Pan Gi Mun çıxış edərək Humanitar Sammitin keçirilməsinə verdikləri dəstəyə görə bütün dünya liderlərinə təşəkkürünü bildirdi. Dörd il əvvəl bu ideyanın yaranmasına səbəb kimi dünyada humanitar böhranın getdikcə dərinləşdiyini deyən Pan Gi Mun bildirdi ki, bu böhran hər il dərinləşir və insanların bu sahədəki çətinlikləri daha da artır. Dünyada münaqişələrin qarşısının alınmasının vacibliyini diqqətə çatdıran Pan Gi Mun humanitar böhranların səbəbinə çevrilən siyasi sabitsizliyin qarşısının alınmasının və mülki şəxslərin daha çox qorunmasının zəruriliyini qeyd etdi. Qaçqın probleminin qarşısının alınmasında yeni forma və ideyaların yaradılmasının vacibliyini qeyd edən BMT-nin baş katibi böhran içərisində olan milyonlarla insanın problemlərinin həllində bütün dövlətləri və cəmiyyətləri həmrəy olmağa çağırdı. "Biz insanlara yaşamaq və şərəflə həyat sürmək imkanını verməliyik", - deyən Pan Gi Mun əmin olduğunu bildirdi ki, dünya liderləri bu prosesə güclü dəstək verəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Sammitin dünyada ehtiyac içində yaşayan milyonlarla insanın problemlərinin həlli baxımından mühüm imkan olduğunu bildirdi. Müharibələrin, təbii fəlakətlərin, iqlim dəyişikliyinin bütün bəşəriyyətin təhlükəsizliyini və gələcəyini ciddi təhdid etdiyini deyən Rəcəb Tayyib Ərdoğan Türkiyənin humanitar problemlərin həllində fəal rol oynadığını qeyd etdi. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin bu gün dünyanın 140-dan çox ölkəsində humanitar yardım və sosial inkişaf sahəsində müxtəlif layihələr reallaşdırdığını diqqətə çatdırdı. Hazırda qlobal humanitar yardım sisteminin mövcud problemlərin həlli



baxımından səmərəsiz olduğunu qeyd edən Rəcəb Tayyib Ərdoğan bildirdi ki, bu sistemin yükünü sadəcə bəzi ölkələr öz çiynində daşıyır. Buna görə də bütün dünya ölkələri bu məsuliyyəti bərabər şəkildə bölüşməli, liderlər və beynəlxalq ictimaiyyətin nüfuzlu şəxsləri səylərini birləşdirməlidirlər. Sonra dünyanın müxtəlif ölkələrində münaqişələrdən, təbii fəlakətlərdən əziyyət çəkən insanların üzləşdikləri çətinliklərdən bəhs edən maraqlı kompozisiya təqdim olundu.

Qısa fasilədən sonra Sammit işini plenar iclasla davam etdirdi.

Plenar iclasın həmsədri, BMT-nin baş katibi Pan Gi Mun Sammitin qarşısında duran əsas öhdəlikləri açıqladı. O, müzakirələrin bu öhdəliklərin həyata keçirilməsi, qarşıda duran problemlərin həlli istiqamətində aparılacağını diqqətə çatdırdı.

Ardı Səh. 4

# İlham Əliyev: "Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir"

*"Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır"*

Əvvəli Səh. 3




İclasın digər həmsədri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sülhyaratma, qlobal sülhə nail olma və digər məsələlərdə Türkiyənin bundan sonra da eyni əzmlə çalışacağını bildirdi.

Almaniya Kansleri Angela Merkel silahlı münaqişələrdə mülki şəxslərin həlak olmasının qarşısının alınması üçün səylərin artırılmasının vacibliyini bildirdi. O, Almaniyanın bundan sonra da humanitar yardımların dəstəklənməsi və müvafiq vəsaitin daha da artırılması istiqamətində fəaliyyətini gücləndirəcəyini vurğuladı. Bu sahədə mövcud fəaliyyətlərin əlaqələndirilməsinin əhəmiyyətini qeyd edən Kansler bununla bağlı daha səmərəli qlobal sistemin yaradılmasının vacibliyini diqqətə çatdırdı.

Küveyt Dövlətinin Əmiri Şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əs-Sabah qeyd etdi ki, bu Sammit BMT-nin öz məqsədlərinə çatması üçün mühüm vasitədir. Küveyt Əmiri bildirdi ki, yeni meyarların müəyyənləşdirilməsi, bütün dövlətlərin və beynəlxalq təşkilatların humanitar böhranın aradan qaldırılmasına fəal dəstək verməsi xüsusi əhəmiyyət daşıyır.







Mali Prezidenti İbrahim Bubakar Keyta dünyada humanitar məsələlərin müzakirə olunduğu ilk Sammitin keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirdi. Ölkəsində bu sahədə çətinliklərdən danışan Mali Prezidenti terror qruplaşmalarının humanitar və digər sosial problemlərdən istifadə etdiyini vurğulayaraq, bu təhdidlərin qarşısının alınması üçün bütün ölkələri humanitar sahəyə sərmayə qoymağa çağırdı. Azərbaycan Prezidenti İlham Əliyev Sammitin plenar iclasında çıxış etdi.

Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, biz azərbaycanlılar qaçqınlığın və məcburi köçkünlüyün nə demək olduğunu çox yaxşı bilirik. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, artıq 20 ildən çoxdur ki, bir milyondan artıq azərbaycanlı Ermənistanın hərbi təcavüzü və işğalından əziyyət çəkir:

"Bu təcavüz nəticəsində bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilib. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədib. 1992-ci ildə Ermənistanın törətdiyi Xocalı soyqırımı ondan artıq ölkə tərəfindən soyqırımı kimi tanınıb. Xocalı soyqırımı nəticəsində 613 mülki şəxs qəddarcasına qətlə yetirilib. Onların arasında 106 qadın, 63 uşaq, 70 yaşlı insan olub. Mindən artıq adam itkin düşüb. Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirir.

2016-cı ilin aprelində Ermənistan dinc Azərbaycan vətəndaşlarına qarşı yeni hücum həyata keçirdi. Bu hücum nəticəsində bizim əsgər və zabitlərimiz, o cümlədən 6 mülki şəxs qətlə yetirilib, 30-dan artıq mülki şəxs yaralanıb. Bizim kəndlərimizin atəşə tutulması nəticəsində 500-dən artıq evə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb və yandırılıb. Ermənistan ordusu mülki şəxslərə qarşı qadağan olunmuş kimyəvi silahdan, xüsusilə ağ fosfor bombalarından istifadə edib.

Ermənistan tərəfindən törədilən bütün müharibə cinayətləri sənədlərlə sübuta yetirilib və beynəlxalq müşahidəçilərə təqdim olunub. Mülki əhalimizi qorumaq üçün Azərbaycan Ordusu uğurlu əks-hücum həyata keçirdi və yalnız bundan sonra təcavüzkar dayandırıldı. Ermənistan BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə məhəl qoymur. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafındakı 7 rayonu işğal olunub. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə onlar 20 ildən çoxdur kağız üzərində qalır. Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir. Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir.

Ardı Səh. 5

# İlham Əliyev: "Bu, Azərbaycana qarşı ikili standartlar siyasətidir"

## "Ermənistan bu qətnamələrə əməl etməli və ya bu ölkəyə qarşı sanksiya tətbiq olunmalıdır"

Əvvəli Səh. 4

Bütün region üçün başqa bir təhlükə mənbəyi Ermənistandakı istismar müddəti başa çatmış Metsamor Atom Elektrik Stansiyasıdır. Ermənistanın radioaktiv tullantılardan qanunsuz istifadə etməsinə dair məlumatlar var. Sabiq baş nazir, parlament üzvü və digər Ermənistan rəsmiləri bu ilin aprelində Ermənistanın "çirkli bomba" adlandırılan nüvə silahına malik olduğunu bəyan ediblər. Bu bəyanat müvafiq beynəlxalq təşkilatlar tərəfindən ciddi şəkildə araşdırılmalıdır. Ermənistanın nüvə təhdidi və şantajına son qoyulmalıdır. Azərbaycan səbəbkarı Ermənistan olan humanitar fəlakətin fəsadlarının öhdəsindən gəlmək üçün əlindən gələni edir.

Bizim qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün 6 milyard dollardan artıq vəsait sərf olunub. Qaçqın və məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi 75 faizdən 12 faizə endirilib. Ümumilikdə, son 12 ildə Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enib. Azərbaycan oxşar problemlərdən əziyyət çəkən ölkələrə yardım edir və edəcək. Biz BMT-nin Ebola virusu ilə mübarizə və bərpa tədbirlərinə maddi yardım ayırmışıq. Biz əhalinin qabaqcadan xəbərdarlıq sistemi və fəlakət riski ilə bağlı informasiyaya çıxışını təmin etmək üçün müvafiq təsisatlar və maraqlı tərəflər arasında əməkdaşlığın təbliğinə sadiqik."






***

Sonra Ukrayna Prezidenti Petro Poroşenko, Makedoniya Prezidenti Gyorge İvanov, Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili çıxışlarında dünyada humanitar problemlərin həlli istiqamətində bütün fəaliyyətləri dəstəklədiklərini vurğuladılar. Qeyd edək ki, Türkiyə Respublikasının və BMT-nin təşkilatçılığı ilə ilk dəfə keçirilən Sammit dünyada baş verən humanitar problemlərin həlli baxımından beynəlxalq ictimaiyyətə mühüm çağırışdır. Sammitdə BMT-nin üzvü olan ölkələrdən 60-dək dövlət və hökumət başçısı, böhranlardan əziyyət çəkən ölkələrin rəsmiləri, beynəlxalq təşkilatların, QHT-lərin və özəl sektorun təmsilçiləri olmaqla, ümumilikdə, 5 mindən çox nümayəndə iştirak edir.

Hazırda dünyada 130 milyondan çox insanın humanitar yardıma və sosial müdafiəyə ehtiyacı var. Bu isə humanitar yardım üçün xərclərin məbləğini böyük dərəcədə artırıb. BMT-nin məqsədi bu problemlərin aradan qaldırılması üçün nəzərdə tutulan vəsaitin həcmini 21 milyard dollara çatdırmaqdır. Sammitin əsas hədəfi isə münaqişələrin həllinə və onların baş verməsinin qarşısının alınmasına, humanitar fəlakətlərə yol verilməməsi üçün güclü norma və prinsiplərin bərqərar edilməsinə, fəlakət zonalarındakı insanlara humanitar yardımlar çatdıraraq onların ehtiyaclarının ödənilməsinə, humanitar sahəyə böyük sərmayələrin yatırılmasına yönəlib.



# Azərbaycan ilə Türkiyəni tarixi qardaşlıq əlaqələri birləşdirir

## *Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü olub*






***Mayın 23-də İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.***

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Mütəmadi xarakter daşıyan yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmi qeyd olundu. İstanbulda keçirilən Dünya Humanitar Sammitinin beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edildi, ikitərəfli münasibətlərimizin gələcək inkişafına dair fikir mübadiləsi aparıldı.

# Bir sıra dövlət başçıları Prezident İlham Əliyevi təbrik ediblər

***Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Bir sıra dövlət başçıları Prezident İlham Əliyevi təbrik ediblər. Təbrik məktublarında Azərbaycan xalqına sülh və əmin-amanlıq arzuları ifadə olunur. Polşa Prezidenti Andjey Duda Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi və xalqınızı Polşa xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edir, ölkənizə, vətəndaşlarınıza və şəxsən Zati-alinizə firavanlıq diləyirəm. Avropa İttifaqı ilə Azərbaycan arasında Strateji Əməkdaşlığa dair yeni Razılaşmanın regionda və qitədə sabitliyin, təhlükəsizliyin gücləndirilməsinə xidmət edən qarşılıqlı səmərəli əməkdaşlıqda yeni mərhələ olacağına əminəm.***

Ölkələrimizin hərtərəfli əməkdaşlığının uğurlu inkişaf perspektivlərini nəzərə alaraq, iqtisadi əlaqələrlə yanaşı, mədəni, elmi və gənclər arasında münasibətlərin dərinləşməsinin vacib olduğunu düşünürəm. Bu əlaqələr illərdən bəri dostluq münasibətləri olan xalqlarımız arasında dialoqun daha da genişlənməsinə imkan yaradacaq. Möhtərəm cənab Prezident, Sizə ali dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqına rifah arzu edirəm".

***

Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevdən: "Hörmətli İlham Heydər oğlu. Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizi və bütün Azərbaycan xalqını milli bayramınız - Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında çoxəsrlik dostluq münasibətləri ölkələrimiz və xalqlarımız naminə bundan sonra da durmadan möhkəmlənəcək. Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı və firavanlıq, qardaş Azərbaycan xalqına sülh və əmin-amanlıq diləyirəm".

***

Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyndən: "Zati-aliləri, 28 May - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Bizim sıx əlaqələrimiz ildən-ilə daha da güclənir. Biz bölgələrimizdə sülh və sabitliklə bağlı maraqlarımızı və fikirlərimizi bölüşürük. Biz mühüm milli məsələlərdə bir-birimizə dəstək olmuşuq və dəstək olmağa davam edəcəyik. Mən əminəm ki, bizim qarşılıqlı mənafelərimiz naminə bütün sahələrdə strateji əməkdaşlığımız daha da möhkəmlənəcək. Mən Zati-alinizin cansağlığı və Azərbaycan xalqının rifah, tərəqqi və firavanlığı üçün dua edirəm. Zati-aliləri, mənim dərin hörmətimi və xoş arzularımı qəbul edin".

***

Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetdən: "Hörmətli cənab Prezident. Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi salamlarımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram və qarşıdan gələn ildə Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik arzulayıram".

***

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin-Rəşid Al Maktumdan: "Hörmətli cənab Prezident. Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırır, müdrik rəhbərliyi altında dost və qardaş xalqınıza davamlı tərəqqi və yüksək rifah arzulayıram. Bu xoş fürsətdən istifadə edərək Sizə böyük hörmət və ehtiramımı ifadə edirəm".

***

Əbu-Dabi Əmirliyinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Məhəmməd bin Zayed Al Nəhyandan: "Zati-aliləri, Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırır, müdrik rəhbərliyinizlə dost və qardaş ölkənizə davamlı tərəqqi, yüksək rifah arzulayıram. Cənab Prezident, Sizə böyük hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

***

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyandan: "Zati-aliləri, Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri xalqının milli bayramınız münasibətilə böyük fərəh hissi keçirdiyini Azərbaycan xalqına çatdırmağınızı rica edirəm. Əlamətdar bayram münasibətilə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına rifah və tərəqqi arzu edirəm. Bu xoş fürsətdən istifadə edib, Sizə böyük hörmət və ehtiramımı ifadə edirəm".

***

Malayziyanın XIV Kralı Əl-Mutasimu Billahi Muhibbuddin Tuanku əl-Hac Abdul Halim Muadzam Şah ibni əl-Mərhum Sultan Badlişahandan: "Zati-aliləri, Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizi və Azərbaycan xalqını öz adımdan və Kraliça adından səmimi qəlbdən təbrik edirəm. Əminik ki, Sizin rəhbərliyiniz ilə Azərbaycan Respublikası uğurlu inkişafını davam etdirəcək".



## Azərbaycan ilə Çin arasında münasibətlər yüksək səviyyədədir

*Bu fikir Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri ilə Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsinin görüşündə vurğulanıb*

***Mayın 23-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev ölkəmizdə rəsmi səfərdə olan Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi, Kommunist Partiyası Siyasi Şurasının üzvü, Mərkəzi Komitəsinin siyasi və hüquqi məsələlər komissiyasının katibi - Təhlükəsizlik Şurasının katibi Menq Jianzunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Azərbaycan ilə Çin arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi, əlaqələrimizin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı. Azərbaycan Prezidenti İlham Əliyevin dörd dəfə Çinə səfər etdiyini xatırladan Prezident Administrasiyasının rəhbəri Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyətinin hər iki ölkəyə fayda verdiyini vurğuladı, parlamentlərarası münasibətlərin də inkişaf etdiyini bildirdi. Çin Xalq Respublikası Sədrinin xüsusi nümayəndəsi Menq Jianzu Azərbaycan ilə Çin arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə etdi, əlaqələrin perspektivlərindən danışdı. Qeyd etdi ki, Çində ulu öndər Heydər Əliyevin xatirəsi daim hörmətlə anılır və Prezident İlham Əliyevə böyük ehtiram var. Görüşdə bildirildi ki, hər iki ölkənin dövlət başçıları arasında sıx əlaqələr, həmçinin xalqlarımızın tarixi dostluq münasibətləri əməkdaşlığın dərinləşməsinə töhfə verir. Söhbət zamanı Çinin Mərkəzi Komitəsinin siyasi və hüquqi məsələlər komissiyası - Təhlükəsizlik Şurası ilə Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası, habelə ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Mixail Qusman: Bu ilin noyabrında Bakı Dünya Xəbər Agentliklərinin V Konqresinin paytaxtı olacaq

Bu ilin noyabrında Bakı Dünya Xəbər Agentliklərinin V Konqresinin paytaxtı olacaq. AZƏRTAC xəbər verir ki, bu sözləri mayın 23-də Bakıda keçirilən Dünya Xəbər Agentlikləri Konqresi (NACO) Şurasının növbəti iclası ilə bağlı jurnalistlərə müsahibəsində Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman deyib. Mixail Qusman son illər Azərbaycanın irimiqyaslı ictimai, siyasi, mədəni tədbirlərin keçirildiyi bir mərkəzə çevrildiyini və bu il noyabrın 16-17-də məhz Bakının Dünya Xəbər Agentliklərinin V Konqresinə ev sahibliyi edəcəyini diqqətə çatdırdı. "Bütün dünya agentliklərinin rəhbərləri, dünya informasiya axınına cavabdeh olan, informasiyanın məsuliyyətini daşıyan insanlar Dünya Xəbər Agentliklərinin V Konqresində iştirak etmək üçün Bakıda toplaşacaqlar. Konqresin Bakıda keçirilməsi faktı bütün peşəkar dünya informasiya birliyinin azərbaycanlı həmkarlarına, o cümlədən AZƏRTAC-a inamının sübutudur.AZƏRTAC irimiqyaslı informasiya birliklərinin - Avropa Xəbər Agentlikləri Alyansının (EANA), Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) çox fəal üzvüdür. Dünya Xəbər Agentliklərinin bundan əvvəlki konqresləri Rusiya, İspaniya, Argentina və Səudiyyə Ərəbistanında keçirilib. Azərbaycana inamın nəticəsidir ki, növbəti Konqresin harada keçiriləcəyi müəyyənləşdirilərkən Ər-Riyad toplantısında gizli səsvermədə çoxluq tədbirin məhz Bakıda təşkil olunmasını dəstəklədi. Bu, Azərbaycana böyük inamın təsdiqi idi". TASS-ın baş direktorunun birinci müavini bildirdi ki, Azərbaycanda media açıq və azad şəkildə fəaliyyət göstərir. AZƏRTAC Azərbaycan mediasının flaqmanıdır. Düşünürəm ki, Konqresin Bakıda keçirilməsi digər vacib tədbirlər arasında çox parlaq bir hadisə olacaq.

## Novruz Məmmədov: "Dağlıq Qarabağ münaqişəsi danışıqlar və sülh yolu ilə həll olunmalıdır"



***Bu gün hamı başa düşür ki, Dağlıq Qarabağ münaqişəsi tez-gec həll olunmalıdır, özü də danışıqlar və sülh yolu ilə. Trend-in məlumatına görə, bunu ANS-ə açıqlamasında Prezident Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov deyib.***

N.Məmmədov deyib ki, aprel ayının əvvəlində baş verən hadisələr Ermənistan tərəfinin düşünülmüş və ya düşünülməmiş addımı olsa da, dünya içtimayətinin, həmsədr dövlətlərinin, müxtəlif beynəlxalq və regional təşkilatların diqqətini bir daha bu münaqişəyə cəlb etdi və nünümayiş etdirdi ki, bu münaqişə dondurulmuş münaqişə deyil: "Eyni zamanda Avropada, Amerika Birləşmiş Ştatlarında, lap belə Rusiyanın özündə də belə bir fikir formalaşdı ki, bu münaqişəyə daha diqqətli olmaq lazımdır, bunun həllini ortaya qoymaq üçün artıq vaxt gəlib çatıb". Vyanada mayın 16-da keçirilən görüşə fikir bildirərkən, Novruz Məmmədov deyib ki, Azərbaycanın istədiyi yalnız münaqişənin ədalətli, beynəlxalq hüquq normaları çərçivəsində həll olunmasıdır: "Bunun üçün də, biz doğrudan da danışıqlara və sülh yolluna üstünlük veririk".

N.Məmmədov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin Vyana görüşündən sonra səlahiyyətlərinin artırılmasını şərh edərkən həmçinin qeyd edib ki, Azərbaycan bununla bağlı rəsmi mövqe bildirib: "Burada əsas ideya atəşkəs rejiminin mövkəmləndirilməsi idi. Yəni aprelin əvvəlindəki kimi və ondan sonra da Ermənistan tərəfi daim təxribatlar ilə məşğuldur. Bunların olmaması üçün bir neçə təklif irəli sürüldü, onlardan biri də ATƏT-in nümayəndəsinin monitorinq aparması üçün mandatının genişlənməsi idi. Prinsip etibarı ilə biz dedik ki, bu təklifləri həmsədr ölkələrinin təklifləri kimi qəbul edirik, yəni buna etiraz etmirik." N.Məmmədov əlavə edib ki, ATƏT-in nümayəndəsinin monitorinq imkanları bu vaxta qədər də olub: "Bizim istədiyimiz burda yalnız budur ki, monitorinq olursa olsun, etiraz etmirik, müəyyən mənada genişləndirmə imkanları varsa da, genişləndirilsin. Amma bu ədalətli olsun, bununla bağlı, baş verən hadisələrlə bağlı nümayəndə heyəti düzgün fikir bildirsin, bəyanat versin, açıq-aydın desin". N.Məmmədov deyib ki, baş verən hadisələrlə bağlı dəqiq, qərəzsiz, reallığı əks etdirən mövqenin ortaya qoyulması böyük bir problemdir. "Ermənistan tərəfi fosforlu bomba işlədir, bununla bağlı nə həmsədrlər, nə ATƏT-in nümayəndəliyi bir mövqe bildirmir, məgər bu normal haldır?", deyə Məmmədov vurğulayıb. Prezident Administrasiyası rəhbərinin müavini həmçinin Ermənistanın sabiq baş naziri, ölkə parlamentinin deputatı Qrant Baqratyanın mətbuat konfransında Ermənistanın atom silahının olması barədə bəyanatına belə fikir bildirib: "Buna bir mövqe bildirmək lazımdır axı. Əgər bu varsa, bu tək Azərbaycan üçün yox, region üçün geniş bir təhlükədir. Buna görə də, bizim istəyimiz budur ki, orda olan missiya ədalətli mövqe tutsun, real proseslərə qiymət versin."

## Aslan Aslanov: "İnnovasiyalı texnologiyanın sürətli inkişafı informasiya agentlikləri üçün ciddi problemlər yaradıb"



Müasir dövrdə innovasiyalı texnologiyanın sürətli inkişafı informasiya agentlikləri üçün ciddi problemlər yaradıb. Bu sözləri mayın 23-də Bakıda keçirilən Dünya Xəbər Agentlikləri Konqresi (NACO) Şurasının növbəti iclası ilə bağlı jurnalistlərə müsahibəsində AZƏRTAC-ın baş direktoru Aslan Aslanov deyib. Baş direktor diqqətə çatdırdı ki, Dünya Xəbər Agentlikləri Konqresi Şurasının bu gün keçirilən iclasında 2016-cı il noyabrın 16-17-də Bakıda AZƏRTAC-ın ev sahibliyi edəcəyi Dünya Xəbər Agentliklərinin V Konqresinə hazırlıq işləri müzakirə olunur. Şura üzvləri Konqresin proqramını, çıxışçıların siyahısını, Konqres çərçivəsində təşkil olunacaq fotomüsabiqənin şərtlərini müzakirə ediblər. AZƏRTAC-ın baş direktoru bildirib ki, Bakı Konqresində əsasən informasiya sahəsində dünya mediasını düşündürən qlobal məsələlər müzakirə olunacaq. Bu müzakirələrin əsasını ilk növbədə sosial media ilə ənənəvi media arasındakı münasibətlər məsələsi təşkil edəcək. Konqresdə iştirak edəcək dünya mediasının görkəmli nümayəndələri qarşıda duran problemlərdən çıxış yollarını araşdıracaqlar. İnnovasiyalı texnologiyanın sürətli inkişafının informasiya agentlikləri üçün çox ciddi problemlər yaratdığını vurğulayan A.Aslanov dedi: "İnsanlar özləri sosial medianın imkanlarından istifadə edərək daha asan, daha sürətlə xəbərləşirlər və bu da ənənəvi media qarşısında ciddi problemlər yaradır. Bu problemlərdən çıxış yollarının tapılması Dünya Xəbər Agentliklərinin Bakıda keçiriləcək V Konqresinin müzakirə mövzusu olacaq".

## Azərbaycanın xarici işlər naziri 16-cı Doha Qlobal Forumu çərçivəsində plenar sessiyada çıxış edib

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov 16-cı Doha Qlobal Forumu çərçivəsində "Beynəlxalq və regional status-kvo və çağırışlarla üzləşməyin vasitələri" adlı plenar sessiyada məruzə ilə çıxış edib. Nazir Elmar Məmmədyarov çıxışında beynəlxalq və regional təhlükəsizliyin təmin olunmasında ölkəmizin rolu, ekstremizm və terrorizmə qarşı mübarizədə verdiyi töhfə, eləcə də Ermənistan-Azərbaycan münaqişəsi və onun nəticələri barədə geniş məlumat verib.***

Müasir dünyada baş verən dramatik dəyişikliklər nəticəsində dünya ölkələrinin üzləşdiyi hərbi təcavüz və qanunsuz işğal kimi ənənəvi təhdidlərlə yanaşı, kiberterrorizm, kütləvi miqrasiya kimi qeyri-ənənəvi problemlərin beynəlxalq və regional təhlükəsizlik arasında sərhədləri aradan qaldırdığını qeyd edən bu problemlərlə effektiv mübarizə aparmaq yolları haqqında danışıb.

E.Məmmədyarov dünyada baş verən ədalətsizliklərin aradan qaldırılması məqsədilə gücün deyil, hüququn hökmranlıq etməsinin əsas olduğunu bildirərək, dünya birliyi tərəfindən beynəlxalq hüquqa tam əməl olunması üçün effektiv mexanizmlərin yaradılmasının əhəmiyyətini vurğulayıb. Bu xüsusda, Ermənistan tərəfindən iyirmi faizdən çox ərazilərimizin işğal olunması və ölkə əhalisinin hər doqquz nəfərdən birinin qaçqın və ya məcburi köçkünə çevrilməsi ilə bağlı Azərbaycanın üzləşdiyi ən böyük ədalətsizlik haqqında danışaraq, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə baxmayaraq, işğal faktına son qoyulmadığını, ölkəmizə münasibətdə ədalətsizliyin hələ də davam etdiyini təəssüflə qeyd edib. E. Məmmədyarov son dövrlər kütləvi xarakter alan miqrasiya böhranına toxunaraq, problemin müharibələr deyil, həmin ölkələrin üzləşdiyi iqtisadi çətinliklərdən qaynaqlandığını diqqətə çatdırıb. Miqrasiya böhranının səmərəli həlli üçün davamlı inkişaf yolu ilə iqtisadi şərait və imkanların yaradılmasının vacibliyini bildirib. Nazir, həmçinin multikulturalizm ideyaları, onların təşviq olunmasının əhəmiyyətinə toxunaraq, ölkəmizin dünyada multikulturalizm və tolerantlıq nümunəsi olduğunu nəzərə çatdırıb. Ekstremizm və terrorizmlə mübarizədə əməkdaşlıq haqqında danışan nazir Elmar Məmmədyarov beynəlxalq və regional təhlükəsizliklə bağlı təhdidləri dəf etmək üçün dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının ən vacib şərt olduğunu vurğulayıb.



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Qarabağın açarı Motsartın vətənində yox, Putinin cibindədir...

***Hər dəfə prezidentlərin Vyanada görüşü olanda, sanki avstriyalı Volfqanq Amadey Motsartın ruhu, Serj Sarkisyanın həyasız simasından narahat olurmuş kimi, mənzərə hiss edirəm. Gerçəkdən belədir. Söz xatirinə yazmıram bu cümləni. Barbar, vəhşi və uşaq canisi olan birisinin Vyanada sırtıq və həyasız siması ilə kimi və nəyi təmsil etməsi bir yana, insanlıq adına bir ləkə kimi ortaya çıxması əsl faciədir gerçəkdən.***

Onun Motsartı dinləyib bu dahi bəstəkarın musiqisindən nəsə anlaması üçünsə... ən azı Xocalıda didi-diri şişə keçirdiyi azərbaycanlı körpələrinin çığırtılarından həzz almaması lazım idi. Amma o... 1992-ci ilin soyuq fevralında, Xocalıdan qaçıb meşəyə sığınan köməksiz qadının qarnını yararaq, qızıl və zinət əşyalarını qanlı-qanlı təmizləyib cibinə qoyan bir insan qatili idi. (Bax: "Sarkisyan Xocalıda türk qadınının qarnını gözüm önündə yardı". Modern.az saytı.26:02. 2016. 09:50) Bir də doğuşdan erməni doğulması gərək idi. Amma o, artıq günahsız azərbaycanlı körpələrin qatili kimi tanınır. Dəhşətlisi odur ki, dünya musiqisinin paytaxtında uşaq qatili sülhdən dəm vurur...

Nə isə, gələk əsl mətləbə. Artıq neçə dəfədir ki, Vyanada keçirilən danışıqlarda baş verənləri diqqətlə izləyirəm. Hər dəfə S.Sarkisyan, Rusiya nümayəndələri danışıqlar prosesində iştirak etməyəndə, özünü əsl yetim uşaq obrazında hiss edir. Bu dəfə isə o, Sergey Lavrovun pencəyindən iki əlli yapışan zavallı, İrəvandakı hakimiyyətini itirməmək üçün hər şeyə hazır olan çarəsiz kimi görünürdü. Sanki hələ də Moskvanın onun himayəçisi olduğunu, ondan vaz keçmədiyini bu yaltaq və şit hərəkətləri ilə kimlərəsə göstərməyə çalışırdı. Həm də Ermənistanda Rusiya bayrağlarının yandırılmasından sonra Vladimir Putinin qəzəbinə gəlmədiyini göstərməyə çalışırdı. Hə, çalışırdı, amma əslində, elə deyil S.Sarkisyanın hazırkı durumu. Çox yəqin ki, S.Sarkisyanın bu acınacaqlı durumunu, masanın qarşı tərəfində oturan Azərbaycan Prezidenti İlham Əliyev də müşahidə edirdi. Alçalmış Serjin acı taleyi...

İndi isə gələk danışıqlar prosesinin gedişatına. Apreldə baş verən döyüşlərdə bütün Ermənistan, Xocalıda törətdiyi genosid zamanı dağınıq halda olan o zamankı Azərbaycanın artıq tarixə çevrildiyini, indi qarşısında Moskvanın azacıq üzünü o tərəfə çevirəcəyi halda, onu cəmi 2 saata Qarabağdan deyil, elə İrəvanın özündən də qovub çıxaracaq güclü Azərbaycanın dayandığını öz gözləri ilə gördü. Bu, təbliğat üçün deyilmiş cümlə deyil, əsl faktdır.

Erməni cəmiyyəti həm də onu da anladı ki, artıq bu dəfə rəsmi Bakı ilə "müharibə dili" ilə danışıq aparmaq, ən azı mənasız və özü-özünü aldatmaq kimi bir şeydir. Azərbaycanın silah personalı bir neçə dəqiqəyə, hətta İrəvanı belə Qafqaz coğrafiyasından silməyə yetər. Yenə də deyirəm, bu sözlər, təbliğat üçün deyil, doğrudan da belədir. Deməli, 1992-1993-cü illərdəki Azərbaycan artıq arxada qalıb.

Amma aprel döyüşləri həm də ermənilər üçün ona görə kabus oldu ki, artıq Ermənistanda dərk etdilər ki, bir gün Rusiya da onların köməyinə gəlməyə bilər və o zaman Xocalıda diri-diri yandırdıqları körpələrin həmvətənləri onları öz odunda qovura bilərlər. Yüz illər boyu Qafqazda rusların qapazaltısı rolunu oynayan ermənilər üçün bu fakt, gerçəkdən əsl kabusdur. Artıq Ermənistanda Azərbaycana başqa cür yanaşma prosesi başlayıb. Əsl həqiqəti dərk etmə dövrü...

V.Putin isə, aprel döyüşlərində Haykanuşun çığırtısına qulaqlarını qapatmaqla, həm İrəvanda ayaq altında tapdanılan rus bayrağına görə erməniləri cəzalandırdı, həm də gələcək planları üçün Azərbaycanla vacib iş birliyi yaradacağına işarə vurdu. Belə tarixi və strateji maraqlar üçün özünə yük etdiyi ermənilərin çığırtısı Kreml sahibi üçün heç milçək pıçıltısı da deyil. Apreldə cəbhədə baş verənlər, açıq-aşkar V.Putinin region üçün nəzərdə tutduğu planların siqnalı idi həm də. Açıq-aydın görünən odur ki, görüş yeri Vyana, Paris, Brüssel olsa da, Qarabağın həll yolu, yaxud Qarabağ münaqişəsinin açar funksiyası Kremldə, V.Putinin masasındadır. Açarı V.Putində axtaraq...

# Oqtay Əsədov Monteneqronun Prezidenti Filip Vuyanoviç ilə görüşüb

***Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyəti Monteneqronun müstəqilliyinin 10 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərdə iştirak etmək üçün mayın 20-dən 22-dək bu ölkənin paytaxtı Podqoritsa şəhərində səfərdə olub.***

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Oqtay Əsədov Monteneqronun Prezidenti Filip Vuyanoviç ilə görüşüb. Görüşdə Milli Məclisin sədri Müstəqillik Günü münasibətilə dost Monteneqro dövləti və xalqını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından, eləcə də Azərbaycan xalqı adından təbrik edib. Söhbət zamanı bildirilib ki, yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.



Milli Məclisin sədri qeyd edib ki, ölkələrimiz arasında iqtisadi sahədəki göstəriciləri yüksəltmək üçün biznes forumların keçirilməsi, iş adamları arasında əlaqələrin təmin olunması mühüm əhəmiyyət kəsb edir. "Bu baxımdan biz Hökumətlərarası İqtisadi Komissiyanın yaradılmasını da müsbət hal kimi dəyərləndiririk. Bu gün Azərbaycan enerji sahəsində Avropanın etibarlı tərəfdaşıdır. "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılması istiqamətində mühüm addımlar atılmaqdadır", - deyə sədr qeyd edib. Oqtay Əsədov münasibətlərin inkişafında parlamentlərin mühüm rol oynadığını söyləyərək vurğulayıb: "Biz hər iki ölkənin qanunvericilik orqanında parlamentlərarası əlaqələr üzrə dostluq qruplarının mövcud olmasını yüksək qiymətləndiririk".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açan Milli Məclisin sədri bildirib ki, nüfuzlu beynəlxalq qurumların bu məsələ ilə əlaqədar qərar və qətnamələrinə məhəl qoymayan Ermənistan işğalçılıq siyasəti yeritməkdə davam edir: "Biz inanırıq ki, beynəlxalq birliyin dəstəyi ilə münaqişə ölkələrin ərazi bütövlüyü prinsipi çərçivəsində tezliklə öz ədalətli həllini tapacaq".

Monteneqronun Prezidenti Filip Vuyanoviç Azərbaycan nümayəndə heyətinin ölkənin Müstəqillik Günü münasibətilə keçirilən yubiley tədbirlərinə qatılmasını yüksək dəyərləndirib. Vurğulayıb ki, təmsil etdiyi ölkə Cənubi Qafqazın bu bölgəsi ilə həyatın müxtəlif sahələrində əməkdaşlığı dərinləşdirmək niyyətindədir. Görüş zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, regional münaqişələrin aradan qaldırılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmin gün Monteneqronun paytaxtında ölkənin müstəqillik qazanmasının 10 illiyi münasibətilə ədəbi-bədii kompozisiyalardan ibarət tədbir keçirilib. Azərbaycan nümayəndə heyəti tədbirdə iştirak edib. Səfər çərçivəsində Milli Məclisin sədri Oqtay Əsədov Azərbaycanın böyük şairi Hüseyn Cavidin şərəfinə Podqoritsa şəhərinin mərkəzi parkında qoyulmuş büstünü ziyarət edərək, abidənin önünə tər çiçəklər düzüb. Park Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2013-cü ildə yenidən qurulub. Monteneqroda keçirilən tədbirlərdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.

## *Kamal Abdullayev:* Multikulturalizm asanlıqla əldə olunan bir dəyər deyil

"Multikulturalizm asanlıqla əldə olunan bir dəyər deyil. Bunun üçün əsrlər lazım olur, sınaqlardan keçmək lazım gəlir". Bu fikirləri Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev deyib. K.Abdullayev bildirib ki, əsrlərlə yaşı olan Azərbaycan multikulturalizminin formalaşma mərhələsində qarşılaşdığı maneələrdən biri erməni terrorudur. "Erməni terroru dini və etnik müxtəlifliyi özündə ehtiva edən Azərbaycan multikulturalizminə ən böyük təhlükələrdən biridir. Əslində bu gün Azərbaycanı narahat edə bilən heç bir erməni təxribatı yoxdur. Biz ermənilərin bütün təxribatlarına qarşı həmişə sözümüzü deyirik və deyəcəyik. Amma hər halda bəzi məsələlərdə adda-budda yox, məqsədyönlü şəkildə müxtəlif qurumlarla əl-ələ verərək birgə təşəbbüslə fəaliyyət göstərmək lazımdır"-deyə, K.Abdulla vurğulayıb.



## Elmir Vəlizadə: Ölkəmizdə internetin istifadə səviyyəsi yüksəkdir



"Bakı şəhərində, eyni zamanda bölgələrdə fiberoptik kabellərin qurulması və onların şəbəkəsini genişlənməsi üzərində layihələr həyata keçirilir". Bunu bunu rabitə və texnologiyalar nazirinin müavini Elmir Vəlizadə bildirib. E.Vəlizadə qeyd edib ki, ölkədə internetin istifadə səviyyəsi yüksəkdir. Onun sözlərinə görə, buna baxmayaraq internet xidmətlərinin keyfiyyətinin artırılması, daha çeşidli xidmətlərin göstərilməsi üçün işlər görülməkdədir, o cümlədən infrastruktur layihələri həyata keçirilməsi, yəni mövcud şəbəkənin modernləşdirilməsi üzərində işlər gedir. "Burada həm Bakı Telefon İstehsalat Birliyi, eyni zamanda "Aztelekom" İB layihələri həyata keçirir"- deyə, nazir müavini vurğulayıb.

## Araz Əzimov İsrailə səfər edib



Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Araz Əzimov 18 may 2016-cı il tarixində İsrail Dövlətinə səfər edib. Səfər zamanı o, İsrailin xarici işlər nazirliyi, parlamenti və digər dövlət orqanlarının rəsmiləri ilə görüşlər keçirib. SİA-nın məlumatına görə, keçirilmiş görüşlər zamanı iki ölkə arasında əməkdaşlığın aktual məsələləri, eləcə də Yaxın Şərq və Cənubi Qafqazda regional məsələlər, o cümlədən, nüvə təhlükəsizliyi məsələləri ətrafında fikir mübadiləsi aparıllb. Bütün dövlətlərin, o cümlədən, İranın nüvə enerjisindən sülh məqsədi ilə istifadə hüququnun olduğu bir daha təsdiq edilib. Həmçinin, Ermənistanın Azərbaycana və bölgəyə qarşı törətdiyi təhlükələr haqqında qarşı tərəfə dolğun məlumat verilib.

# AŞPA Monitorinq Komitəsinin iclasında Azərbaycan torpaqlarının işğalı faktı bir daha sübut edilib

***Parisdə AŞPA Monitorinq Komitəsinin iclası keçirilib. İclasın birinci iş günündə Azərbaycanla bağlı hazırlanan məruzə dinlənilib.***




Bu haqda AZƏRTAC-a Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov məlumat verib. S.Seyidov bildirib ki, aprel ayında AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennak Azərbaycanda səfərdə olub. Bu gün Monitorinq Komitəsində həmin missiyanın ilkin məruzəsi dinlənilib.

Məruzədə ölkədə insan hüquqlarının vəziyyəti, xüsusilə də Prezident İlham Əliyevin imzaladığı əfv fərmanları, qeyri-hökumət təşkilatlarının normal şəraitdə fəaliyyət göstərməsi, Azərbaycanda gedən müsbət proseslər haqqında məlumatlar əksini tapıb. İclasda aprel ayında qoşunların təmas xəttində vəziyyətin gərginləşməsindən danışılıb, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı faktı ilə bağlı fikirlər söylənilib və müzakirələr aparılıb. Müzakirələr zamanı Ermənistan nümayəndələrinin etirazlarına baxmayaraq, AŞPA Monitorinq Komitəsinin üzvləri, həmməruzəçilər, digər deputatlar bununla bağlı öz mövqelərini bildiriblər.

Müzakirələr zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri S.Seyidov Avropa Şurasının, Avropa İnsan Hüquqları Məhkəməsinin qəbul etdiyi sənədlərə istinad edərək Azərbaycan torpaqlarının işğalı faktını gündəmə gətirib, bu faktı sənədlərlə sübut edib.

Monitorinq Komitəsinin bu iclası həmişə Azərbaycana qarşı ciddi tənqidi mövqedə olan avropalı deputatların ölkəmizdəki proseslərə müsbət münasibətləri ilə yadda qalıb. Avropalı deputatlar Prezident İlham Əliyevin apardığı düşünülmüş siyasətin göz qabağında olan nəticələrinin təqdirəlayiq olduğunu bildiriblər.

S.Seyidov bir neçə gün əvvəl Milli Məclisdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, parlamentin deputatı Mehriban Əliyevanın təşəbbüskarı olduğu "28 May - Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərar layihəsinin yekdilliklə qəbul olunduğunu vurğulayaraq, onun ümumilikdə 10 min məhkuma şamil ediləcəyini və onlardan 3 min 500-ə yaxın şəxsin cəzaçəkmə müəssisələrindən azad ediləcəyinin gözlənildiyini diqqətə çatdırıb. Bu addım Monitorinq Komitəsinin bütün üzvləri tərəfindən təqdirəlayiq hesab olunub.

Monitorinq Komitəsinin həmməruzəçilərinin iyun ayında yenidən Azərbaycana gəlmələri ilə bağlı qərar qəbul edilib. Həmməruzəçilər nəticələri ləğv edilmiş 90 saylı seçki dairəsində keçiriləcək seçkiləri müşahidə etmək üçün Monitorinq Komitəsinin razılığını alıb.

İyun missiyası çərçivəsində həmməruzəçilərin dövlət rəsmləri ilə görüşləri də gözlənilir. Azərbaycan nümayəndə heyətinin rəhbəri qeyd edib ki, ölkəmizdə görülən işlər, imzalanan fərmanlar, amnistiya təşəbbüsü, müsbət istiqamətdə atılan addımlar AŞPA-da ermənilər tərəfindən təşkil olunan və ölkəmizin imicinə ləkə yaxmaqdan ibarət antiazərbaycan kampaniyalarına ciddi cavabdır və bu kampaniyaya ağır zərbədir.

Monitorinq Komitəsinin iclasında S. Seyidov konkret sənədlər, broşürlər vasitəsi ilə də erməni kampaniyasının iç üzünü açıb göstərib. Komitənin üzvlərinə paylanan broşürlər qoşunların təmas xəttində dinc azərbaycanlı əhalinin ermənilər tərəfindən hədəfə alındığını bir daha sübut edib. Monitorinq Komitəsində Azərbaycanla bağlı məruzənin ilkin variantı qəbul olunub. Növbəti səfər iki həmməruzəçi ölkəmizdə missiyada olacaq və müşahidə aparacaq. İkinci həmməruzəçi Monitorinq Komitəsinin sədridir.

# Bakıda Dünya Xəbər Agentlikləri Konqresi Şurasının növbəti iclası keçirilib

***Mayın 23-də AZƏRTAC-ın ev sahibliyi ilə Bakıda Dünya Xəbər Agentlikləri Konqresi (NACO) Şurasının növbəti iclası keçirilib.***



İclasda AZƏRTAC-ın baş direktoru Aslan Aslanov, Böyük Britaniyanın Press Association agentliyinin icraçı direktoru Klayv Marşal, Səudiyyə Xəbər Agentliyinin (SPA) prezidenti Abdullah bin Fəhd Əl-Hüseyn, Küveyt Xəbər Agentliyinin (KUNA) baş direktoru Şeyx Mübarək İbrahim Əl-Sabah, Bolqarıstanın BTA agentliyinin baş direktoru Maksim Minçev, Rusiyanın TASS agentliyi baş direktorunun birinci müavini Mixail Qusman, Dünya Xəbər Agentlikləri Konqresinin baş katibi Uffe Sorensen, Ərəb Xəbər Agentlikləri Federasiyasının baş katibi Fərid Əyyar, Avropa Xəbər Agentlikləri Alyansının baş katibi Erik Naylen, İspaniyanın EFE agentliyinin beynəlxalq əlaqələr üzrə meneceri Xuan Mario Kalvo və nümayəndə heyətlərinin üzvləri iştirak ediblər. AZƏRTAC-ın baş direktoru Aslan Aslanov bildirib ki, dünya informasiya siyasətinin önündə gedən təşkilatları və agentlikləri öz ətrafında birləşdirən Dünya Xəbər Agentlikləri Konqresi 2016-cı il noyabrın 16-17-də Bakıda keçiriləcək. O, Dünya Xəbər Agentliklərinin V Konqresinin təşkilində bu iclasın həlledici rol oynayacağını bildirib. Qeyd edib ki, dünyanın hər yerindən xəbər agentliklərinin rəhbərləri Bakıya toplaşacaq və peşəkar fəaliyyətlə bağlı bir sıra mövzular müzakirə ediləcək.

Dünya Xəbər Agentlikləri Konqresinin baş katibi Uffe Sorensen, Səudiyyə Ərəbistanının SPA agentliyinin prezidenti Abdullah bin Fəhd Əl-Hüseyn, Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman, Böyük Britaniyanın Press Association agentliyinin icraçı direktoru Klayv Marşal iclasın təşkilinə görə AZƏRTAC-a təşəkkürlərini bildiriblər və noyabrda Konqresin yüksək səviyyədə keçəcəyinə əminliklərini ifadə ediblər. Şuranın iclasında 2016-cı il noyabrın 16-17-də Bakıda keçiriləcək Dünya Xəbər Agentliklərinin V Konqresinə hazırlıq işləri müzakirə olunub. Şura üzvləri Konqresin proqramını, çıxışçıların siyahısını, tədbir çərçivəsində təşkil olunacaq fotosərginin şərtlərini nəzərdən keçiriblər. Qeyd edək ki, Dünya Xəbər Agentlikləri Konqresi ilk dəfə 2004-cü ilin sentyabrında Moskvada keçirilib. II, III və IV konqreslər müvafiq olaraq İspaniya, Argentina və Səudiyyə Ərəbistanında baş tutub. 2013-cü il noyabrın 17-21-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilmiş sonuncu Konqresdə növbəti V Konqresin 2016-cı ilin noyabrında Bakıda keçirilməsi barədə gizli səsvermə yolu ilə qərar qəbul edilib. Bu qərara əsasən AZƏRTAC 2016-2019-cu illərdə Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik edəcək. Konqresdə dünyanın bütün qitələrindən informasiya agentliklərinin rəhbərləri, həmçinin media sahəsində aparıcı ekspertlər və müşahidəçilər bir araya gələrək vacib məsələləri müzakirə edirlər.



# Gənc səhrədçilərin andiçmə mərasimi keçirilib

***Dünən Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində yerləşən "N" saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının Komandanı, general-polkovnik Elçin Quliyevin təbrik telefonoqramı çatdırılıb.***







Tədbirdə çıxış edən Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant Azad Ələkbərov Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərindən danışıb. O, qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsi ən müasir tələblər səviyyəsinə qaldırılıb. A.Ələkbərov müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminliyini bildirib.

Mərasimdə çıxış edən valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, gənc əsgərləri təbrik edərək, onlara Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı arzulayıblar.

Tədbir gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

**NƏZAKƏT**

# İsmayıllıda YAP Qadınlar Şurasının Şirvan zonası üzrə regional müşavirəsi keçirilib





***"Multikultural dəyərlər və azərbaycançılıq" mövzusunda Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının İsmayıllıda Şirvan zonası üzrə regional müşavirəsi keçirilib.***







Tədbirdən öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, xatirəsini böyük ehtiramla yad ediblər. Daha sonra, qonaqlar İsmayıllı rayon Tikiş fabrikində qadınlar üçün yaradılan iş şəraiti ilə tanış olublar.

Müşavirədə çıxış edən İsmayıllı rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov belə bir tədbirin keçirilməsi üçün multikultural məkan olan İsmayıllının seçilməsinə görə minnətdarlığını bildirib. O, qeyd edib ki, Azərbaycan təkcə əhalisinin etnik zənginliyi ilə deyil, həm də bütün xalqlara hörmətlə yanaşılması, onların sülh və firavan şəraitdə birgə yaşaması ilə dünya ölkələrinə nümunədir:"İnamla demək olar ki, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının tərkib hissəsi, dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan multikulturalizmin Azərbaycan nümunəsi ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dünyada rəğbətlə qarşılanır və bir çox ölkələrin ali məktəblərində tədris edilir".

Tədbirdə məruzə ilə çıxış edən YAP İsmayıllı rayon təşkilatının sədri Əzizə Vahabova qeyd edib ki, ictimai və siyasi model olaraq multikulturalizm cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasəti əks etdirir:"Azərbaycanda normal multikultural əhvalın olması - müxtəlif konfessiyaların, etnik birliklərin dostluq və mehribançılıq şəraitində yaşaması tarixin qədim dövrlərindən qidalanır. Dövlət başçısı Cənab İlham Əliyevin dediyi kimi "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və svilizasiyaların bir araya gəldiyi məkan olmuşdur". Azərbaycanın müstəqilliyini bərpa etməsinin ilk dövründə Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi. Öz siyasəti ilə əsrlər boyu formalaşmış Azərbaycan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib, onu keyfiyyətcə yeni müstəviyə, siyasət müstəvisinə keçirdi".

YAP-ın İdarə Heyətinin üzvü, YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva çıxışında qeyd edib ki, ölkəmizdə mövcud olan multikultural dəyərlərin geniş miqyasda təbliğ olunması önəmlidir. Bu cür tədbirlərin keçirilməsi dövlətimizin və xalqımızın multikultural dəyərlərə verdiyi qiymətin göstəricisidir: "Ulu Öndər Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideyası xalqımızın multukultural dəyərlərinin ideoloji sistemini təşkil etməklə yanaşı, ölkəmizdə yaşayan bütün etnosların vahid maraqlar və dövlətçilik prinsipləri baxımından mənəvi və siyasi birliyini əlaqələndirir. Azərbaycan tolerant dövlətdir, dünyada müxtəlif millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşadığı bir ölkə kimi tanınır. Bu gün Azərbaycan dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanınır". "Azərbaycanda tarixən birgə yaşayan xalqlar, toplumlar özlərini azad və firavan hiss ediblər", - deyən N.Əliyeva onların özlərinə qarşı həmişə tolerant münasibət gördüklərini və mədəniyyətlərini yaşatdıqların bildirib. Onun dediyinə görə, Azərbaycanda yaşayan 20-dən çox xalqın dil və mədəni zənginliklərini Azərbaycan dövləti öz zənginliyi, öz gücü sayır.

O, Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsinin səbəbsiz olmadığını, multikulturalizm dəyərlərinin qorunması və təbliğinə dövlət tərəfindən yüksək diqqət və qayğı göstərildiyini, ölkəmizdə dilindən, dinindən və irqindən asılı olmayaraq, bütün xalqların nümayəndələri üçün əlverişli mühit yaradıldığını, kilsələrin, sinaqoqların tikintisinə dövlət vəsaitinin ayrıldığını, eləcə də Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın bu sahədə gördüyü təqdirəlayiq işlərin də dünya miqyasında nümunə olduğunu bildirib.

Müşavirədə çıxış edən YAP Qadınlar Şurası sədrinin müavini, millət vəkili Sevinc Hüseynova, YAP Nizami rayon təşkilatının sədri, millət vəkili Sədaqət Vəliyeva, YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü, YAP Yasamal rayon təşkilatı qadınlar şurasının sədri Tamella Şalbuzova, YAP İsmayıllı rayon təşkilatı qadınlar şurasının sədri Xuraman Qurbanova, YAP Şamaxı rayon təşkilatı qadınlar şurasının sədri Gülnisə Ələkbərova, YAP Göyçay rayon təşkilatı qadınlar şurasının sədri Zivər Zeynalova, YAP Ağsu rayon təşkilatı qadınlar şurasının sədrinin müavini Sevil Mirzəliyeva, YAP Kürdəmir rayon təşkilatı qadınlar şurasının sədri Sevda Hacıyeva qeyd ediblər ki, ölkəmizdə müxtəlif dini konfessiyalar əsrlərdir sərbəst və qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərirlər. Bu uğurlu siyasət nəticəsində multikulturalizm Azərbaycanda həyat tərzinə, xalqımız üçün mühüm demokratik dəyərə çevrilib. Milli azlıqların dilinə, dininə və mədəniyyətinə hörmətlə yanaşılır. Bu mənada, Prezident İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan edilməsi dünya dövlətlərinə bir sülh mesajıdır. Qeyd olundu ki, YAP-ın hər bir üzvü, xüsusən də qadınlar bu ilin uğurla başa çatması üçün səylə çalışacaq, Yeni Azərbaycan Partiyasının Sədri, Ali Baş Komandan, Cənab İlham Əliyevin ətrafında daha sıx birləşməklə, multukultural dəyərlərin davamlı və ardıcıl təbliğ olunmasında fəal iştirak edəcəklər.

***Zümrüd BAYRAMOVA***





# Dövlət Miqrasiya Xidməti maarifləndirmə tədbirlərini davam etdirir

***Şəki Regional Miqrasiya İdarəsinin xidmət ərazisinə aid olan Zaqatalada əcnəbi və vətəndaşlığı olmayan şəxslərin, təhsil işçilərinin, ictimaiyyətin və yerli icra hakimiyyəti nümayədələrinin iştirakı ilə rayon Mədəniyyət Evində geniş maarifləndirmə tədbiri keçirilib. Maarifləndirmə tədbirində Azərbaycan Prezidenti Cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsində Dövlət Miqrasiya Xidməti tərəfindən ölkəmizə təşrif buyuran əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin rahatlıqlarının təmin edilməsi üçün görülmüş çoxşaxəli işlər barədə danışılıb.***

Nazirlər Kabinetinin 2015-ci il 18 mart tarixli 84 nömrəli qərarı ilə təsdiq edilmiş "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası" ilə bağlı izahedici söhbət aparılıb. Çıxışlarda, xüsusən məktəblilər arasında əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin qanuna müvafiq olaraq müvəqqəti yaşamaq üçün icazə vəsiqələri almaları, yaxud həmin şagirdlərin vətəndaşlıq mənsubiyyətinin müəyyən edilməsi üçün müraciət etmələrinin zəruriliyi vurğulanıb.

Maarifləndirmə tədbirindən sonra səyyar xidmət təşkil edilib. Keçirilmiş tədbirdə iştirak edən 360 nəfərdən 319 şəxs səyyar xidmətin imkanlarından istifadə edib. Onlardan 220 nəfərinin Azərbaycan Respublikasının vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi, 2 nəfərindən Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, əcnəbi və ya vətəndaşlığı olmayan 2 nəfərdən müvəqqəti yaşama icazəsinin verilməsi ilə bağlı sənədlər qəbul edilib. Bundan başqa, 65 şəxsin vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi, müvəqqəti, həmçinin daimi yaşama, o cümlədən iş icazələrinin alınması ilə bağlı müraciət etmək üçün sənədlərin siyahısı təqdim olunub.

İştirakçılar adından Zülfiyyə Əlixanova və Habil Qurbanov minnətdarlıqlarını bildiriblər.

Şəkidə isə Regional Miqrasiya İdarəsinin xidmət ərazisində yerləşən mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazasının 50-dən çox nümayəndəsinin iştirakı ilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatlarının aparılmasına həsr olunmuş tədbir keçirilib. Bildirilib ki, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs ölkədə 10 gündən artıq qalmaq istədiyi halda, 10 gün ərzində olduğu yer üzrə qeydiyyata düşməlidir.

Sonra əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin elektron qaydada olduğu yer üzrə qeydiyyatları ilə bağlı izahlı video-təlimat nümayiş olunub.

Görüşlərdə, həmçinin, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə yaradılan Dövlət Miqrasiya Xidmətinin Apellyasiya Şurasının fəaliyyəti barədə məlumat verilib.

Eyni zamanda, bu il martın 1-dən qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsinin tələbləri geniş izah olunub.

Sonda suallar cavablandırılıb. İştirakçılar bu cür tədbirlərin təşkilindən razı qaldıqlarını bildiriblər.

**ZÜMRÜD**

# Keçmiş müsavatçı şok faktlar açıqladı

## *"İsa Qəmbər Qubad İbadoğlunu "juçok"la və qardaşı ilə əlaqədar təhdid etdi"*

***Müsavat partiyasında baş verən daxili intriqalar, nizam-intizamsızlıq bu qurumu daha böyük təhlükə qarşısında qoyub. Son bir il ərzində Müsavatın üzvü olan bütün funksionerlər partiyadan istefa verərək, orada hökm sürən avtoritarizmə etiraz ediblər. İstefa verənlərin bir qismi siyasətdən bir dəfəlik getdi, bir hissəsi isə yeni qurum yaratdı.***

Lakin bütün narazıların partiyadan getməsinə baxmayaraq, Müsavatda gərgin vəziyyət və qarşıdurmalar səngimək bilmir. Bir neçə ay bundan əvvəl Müsavatdan istefa verən Səbuhi Məmmədov "SƏS" qəzetinə açıqlamasında partiyada vəziyyətin daha da gərgin olacağının, biabırçı olayların ortaya çıxacağının anonsunu verərək, şok faktlar açılayıb: "Müsavat partiyasında Q.İbadoğlu istefa verəndən sonra ciddi hadisələr baş verdi. Bu, mətbuatdan tamamilə gizli saxlanıldı. Qubad əvvəllər daha radikal idi, sonra isə mülayim danışmağa başladı. Bir məsələni açıqlayım, bu, mətbuata ilk dəfə açıqlanır. İ.Qəmbər Q.İbadoğlunu "juçok"la təhdid etdi. Özü də hamının gözü qarşısında. İ.Qəmbərin təhdid mesajını çatdıran isə onun müşaviri Səxavət Soltanlı idi. Sonra məlum oldu ki, o, Q.İbadoğlunu həm də qardaşı ilə bağlı təhdid edib. Qubadın rəhbəri olduğu iqtisadi mərkəzin böyük maliyyə imkanlarına malik olması İ.Qəmbəri həmişə narahat edirdi. Məsələ bundadır ki, İ.Qəmbər "juçok" vasitəsilə nəyə qulaq asıb, nəyi dinləyib. Adını çəkdiyim insanların hər birinin ciddi maddi imkanları var".

### "İsa Qəmbərin Şamaxının Arabşalbaş kəndində ferması var"

Səbuhi Məmmədov partiya rəhbərliyi ilə bağlı bir neçə mühüm məqama da toxunub: "İsa Qəmbəri Şamaxının Arabşalbaş kəndində böyük ferması var. Fermanı Səxavətin qohumları idarə edir. Eyni zamanda, Qaradağ rayonunda İ.Qəmbərin müşaviri ilə şərikli maşın ehtiyat hissələri mağaza şəbəkələri, restoran-kafeləri fəaliyyət göstərir. Tural Abbaslının evi plana düşmüşdü, sökülməli idi. Camaata kompensasiya da verilirdi. Ən çox kompensasiya Turala verildi, bu işdə İ.Qəmbər ona böyük dəstək oldu. Tural 150 min manatlıq evə, 450 min pul aldı. İ.Qəmbər ondan pulun bir hissəsini Müsavata köçürməyi tələb edirdi, ancaq baş tutmadı. Onlar arasında ilk soyuqluq da, məhz bundan sonra başladı...".

Səbuhi Məmmədov Müsavatda bundan sonra baş verəcək hadisələrdən də danışıb. O, qeyd edib ki, yaxın günlərdə Müsavatda iki mühüm şəxs istefa verəcək: "Hələ 2014-cü ildə söz-söhbət yaranmışdı ki, əgər A.Hacılı başqan seçilməsə, o zaman o, "Yeni Müsavat Partiyası" adlı qurum yaradacaq. Bunu A.Hacılı dolayısı ilə etiraf edirdi. Mən istefa versəm də, indi də müsavatçı dostlarımla görüşürəm. İndi də bu iddia ilə Gülağa Aslanlı çıxış edir. G.Aslanlını təcrid vəziyyətdə saxlayıblar həmişə...".

**Samir**

# ƏƏSMN tərəfindən 90 nəfər əlil istirahət və sağlamlıq mərkəzinə yola salınıb



Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslərin yaz-yay mövsümündə istirahətinin təşkili diqqətdə saxlanılır. ƏƏSMN-dan SİA-ya verilən məlumata görə, cari il üçün də bu istiqamətdə tədbirlərə başlanılıb və 90 nəfər əlilliyi olan şəxs Lənkəran rayonunda yerləşən istirahət və sağlamlıq mərkəzinə yola salınıb. Tədbir nazirliyin "2016-cı il üçün əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi və reabilitasiyası Proqramı" əsasında həyata keçirilir. Proqrama uyğun olaraq, cari il ərzində 1000 nəfərdən çox əlilliyi olan şəxsin Lənkəran, Xaçmaz, Şəki rayonlarında yerləşən istirahət və sağlamlıq mərkəzlərində istirahətinin təşkili planlaşdırılıb. Əlilliyi olan şəxslərin yola salınması zamanı onlar Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən sosial cəhətdən həssas qrupların sosial təminatlarının gücləndirilməsinə göstərilən yüksək diqqət və qayğıdan razılıqla söz açaraq, yaz-yay mövsümündə mənalı istirahət etmələri üçün görülən işlərə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər. İstirahət günlərində əlilliyi olan şəxslər üçün xüsusi mədəni-kütləvi proqram əsasında musiqili-əyləncəli tədbirlərin, stolüstü oyunların, tarixi yerlərə gəzinti turlarının təşkili nəzərdə tutulub. Qeyd edilən şəxslərin istirahət və sağlamlıq mərkəzlərinə aparılıb gətirilməsi bu məqsədlə ayrılmış xüsusi nəqliyyat vasitəsi ilə yerinə yetirilir.

# Hava yenidən soyuyacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti hava şəraitinin dəyişəcəyi barədə məlumat yayıb. Məlumatda bildirilir ki, mayın 24-ü axşam, 25-də bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

# Şəmkirdə "Multikultural milli-mənəvi dəyərlər və gənclik" mövzusunda tədbir keçirilib



***YAP Şəmkir rayon təşkilatında "Multikultural milli-mənəvi dəyərlər və gənclik" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə Şəmkir rayon icra hakimiyyəti başçısının müavini, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, Şəmkir rayon icra hakimiyyəti başçısı aparatında İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, Dini qurumlarla işin təşkilatçısı Ruhid Hacıyev, YAP Şəmkir rayon təşkilatı aparatının məsul işçiləri və YAP Şəmkir rayon təşkilatının fəal gəncləri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan F.Vəliyev ilk öncə multikulturalizm haqqında məlumat verib və qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin başlıca tövsiyələrindən olan multikultural ənənələrin inkişaf etdirilməsi insanların yaddaşında humanist dünyagörüşün formalaşması, gənc nəslin yüksək mənəvi dəyərlər əsasında tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Çıxış edən Şəmkir rayon icra hakimiyyətinin aparatında ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı R.Hacıyev isə tədbir iştirakçılarına xatırladıb ki, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda söylədiyi nitqdə bir daha vurğulamışdır ki, "Multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, ictimai sifarişdir. Çünki bu, bizim üçün normal həyat tərzidir". O bildirib ki, Prezident İlham Əliyevin 2016-cı ili multikulturalizm ili elan etməsi ölkə başçısının bu sahədə apardığı siyasətin bariz nümunəsidir. Multikulturalizmin bir ideoloji məsələ kimi öyrənilməsi milli təfəkkürdə multikultural dəyərlərin yer alması və inkişafına, eyni zamanda beynəlxalq imicimizin yüksəlməsinə müsbət təsir edəcəkdir. Azərbaycan tarixi prosesin bütün mərhələlərində multikultural dəyərlərin yaşandığı bir coğrafi məkan kimi tanınmış, bu gün də mədəniyyətlər və dinlərarası dialoqun unikal məkanına çevrilmişdir.

Digər çıxış edənlər-Şəmkir rayon gənclər və idman idarəsinin rəisi, YAP Şəmkir rayon gənclər birliyinin sədri Emin İsmayılov, Şəmkir rayon Heydər Əliyev Mərkəzinin direktor müavini Fəxri Yusufov, Şəmkir rayon Əhməd Cavad adına Mədəniyyət Evinin direktoru Tural Əliyev, Şəmkir rayon Statistika İdarəsinin müdiri Pərvin Gözəlov, dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda çoxəsrlik tarixə malik multikultural dəyərlərin qorunmasını və inkişafını daim diqqət mərkəzində saxladığını bildiriblər. Azərbaycanda hökm sürən etnik və dini tolerantlıq mühitinin dünyaya nümunə olduğunu, ölkəmizdə istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin olmadığını, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri, o cümlədən müxtəlif dinlərin təmsilçiləri arasında bir-birinə tolerant yanaşmanın mövcud olduğunu qeyd etmişlər.

Tədbirdə iştirak edən fəal gənclər multikulturalizm, plüralizm, tolerantlığın mahiyyəti ilə, Azərbaycanın bu sahədə əldə etdiyi və edəcəyi uğurları ilə bağlı əhəmiyyətli məlumatlar əldə etmiş olublar.

**RƏFİQƏ**

# VTB verilmiş kreditlərinin restrukturizasiyası proqramını bərpa etdi

VTB (Azərbaycan) kreditlərin restrukturizasiya proqramı üzrə işini bərpa edib. Maliyyə bazarlarına nəzarət Palatası tərəfindən müvəqqəti dayandırılmış "Müştəriyə dəstək" proqramı yenilənmiş versiyada müştərilərə təqdim olunur. Proqramda Palatanın ölkədə maliyyə sabitliyinin və istehlakçıların hüquqlarının müdafiəsinə istiqamətlənmiş bütün tövsiyələri nəzərə alınıb. "Müştəriyə dəstək" güzəşt proqramı kredit borclarını ödəməkdə çətinliklə üzləşən müştərilərin kredit yükünün azaldılmasını nəzərdə tutur. Proqrama əsasən, iş yerini və əsas gəlir mənbəyini itirmiş müştərilərə 6 ay müddətinə aylıq ödənişi azaltmaq imkanı verilir. Belə şərtlərdə "Avtokredit" və "Girovlu istehlak krediti" olan müştərilər aylıq ödənişlərinin cəmi 10%-ni, "Nağd kredit" məhsulu üzrə borclu olanlar isəaylıq ödənişlərinin cəmi 15%-ni ödəyəcək. Kreditin məbləğindən asılı olaraq, aylıq ödəniş 15-20 manat təşkil edə bilər. Gəliri azalan müştərilər üçün güzəşt ili ərzində aylıq ödənişin azaldılması nəzərdə tutulub. Dollar krediti olan müştərilərə aylıq ödənişin 50%-ə qədər, manat və rublda kreditləri olanlar üçün 30%-dək azaldılması təklif edilir. Güzəşt müddəti ərzində vaxtında ödəniş edən müştərilər üçün bank faiz dərəcəsini 25% azaltmağa hazırdır.

Qeyd edək ki, Bank VTB (Azərbaycan) ASC VTB Bank ASC-nin törəmə bankıdır. Bank VTB (Azərbaycan) ASC-nin səhmdarları: VTB Bank ASC və "AtaHolding" ASC-dir. Bank VTB (Azərbaycan) ASC korporativ biznesi, kiçik və fərdi biznesi təmsil edən müştərilərə, eləcədə fiziki şəxslərə xidmət göstərir. Bu gün bank baş ofis yanında Müştəri xidmətləri İdarəsi də daxil olmaqla 15 filial ilə təmsil olunub.

# Kinematoqrafçılar İttifaqı müsabiqə ELAN EDİR

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı "YENİ NƏFƏS-II" adlı qısametrajlı ssenari müsabiqəsi elan edir.

**Məqsəd:**

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da, mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

**Şərtlər:**

· Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.

· Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.

· Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.

· Ssenari orijinal, yəni, ekranlaşdırılmamış olmalıdır.

· Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.

· Şrift Courier New, ölçü 12 tələb olunur.

· Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.

· Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.

· Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.

· Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.

· Ssenarilər 31 iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

· Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh. Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

**Qaydalar:**

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir. Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:


Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

"YENI NƏFƏS-II"

adlı qısametrajli ssenari müsabiqəsi elan edir.

*Məqsəd:*

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqədə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

*Şərtlər:*

•Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.

•Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.

•Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.

•Ssenari orijinal, yəni ekranlaşdırılmamış olmalıdır.

•Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.

•Şrift Courier New, ölçü 12 tələb olunur.

•Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.

•Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.

•Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.

•Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.

•Ssenarilər 31iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

•Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh.Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

*Qaydalar:*

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir.Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:

**•Qran Pri – 3000 manat** (Ekranlaşdırılması nəzərdə tutulub)

**•I yer 2000 manat**

**•II yer 1500 manat**

**•III yer 1000 manat**

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

Əlaqə üçün:Tel: +99412 597-48-04
Fax: +99412 597-48-03
Mob:+99451 427-41-03
arki.2012@mail.ru

İnformasiya dəstəyi:

AZƏRTAC TREND Day.Az SƏS QƏZETİ Mədəniyyət KASPI

· Qran Pri - 3000 manat (Ekranlaşdırılması nəzərdə tutulub)

· I yer 2000 manat

· II yer 1500 manat

· III yer 1000 manat

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

***Əlaqə üçün: Tel: +99412 597-48-04***
***Fax: +99412 597-48-03***
***Mob: +99451 427-41-03***
***arki.2012@mail.ru***

İnformasiya dəstəyi:

"AZƏRTAC", "Trend", "Day.az", "Səs", "Mədəniyyət", "Kaspi" qəzetləri

# “Metsamor” təhlükəsinə qarşı Beynəlxalq Koalisiya yaradılır



***Hazırkı mərhələdə region üçün ən böyük təhlükə mənbəyi Ermənistandakı “Metsamor” Atom-Elektrik Stansiyasıdır. Təhlükənin qarşısının alınması üçün Azərbaycan, Gürcüstan, Türkiyə və İran QHT-lərinin birgə iştirakı ilə Beynəlxalq Koalisiyanın yaradılması təklif olunur. Azərbaycanda fəaliyyət göstərən bəzi QHT rəhbərləri ilə söhbətimizdə təklifin reallaşması üçün geniş imkanların və bütün bunların fonunda istəklərin olduğunu bildirdilər.***

## İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov:

- “Metsamor” Atom-Elektrik Stansiyasının bağlanması üçün adları çəkilən ölkələrin fəal QHT-lərinin iştirakilə Beynəlxalq Koalisiyanın yaradılması təhlükənin qarşısının alınmasında mühüm rol oynaya bilər. Bunun üçün səylərin birləşdirilməsinə ehtiyac var. İdeyanın reallaşması məqsədilə ciddi iş aparılmalıdır. 1976-ci ildən istismar edilən və bir dəfə də olsun təmir olunmayan stansiyada qəza baş versə, milyonlarla insan həyatını itirə bilər. Bu təhlükənin qarşısının alınması üçün yalnız region ölkələri deyil, eləcə də, beynəlxalq birliyin də əməli addımlar atmasına zərurət var. Birmənalı şəkildə demək olar ki, “Metsamor” Atom-Elektrik stansiyası Azərbaycan, Gürcüstan, Türkiyə və İran üçün ciddi təhlükədir. Dünya ictimaiyyətinin bu təhlükənin fərqində olması üçün dörd dövlətin birliyinə və ciddi şəkildə iş aparmalarına ehtiyac var. Bir sözlə, bu ideyanın irəli sürülməsini ancaq alqışlamaq olar. Düşünürəm ki, “Metsamor” Atom-Elektrik Stansiyasının bağlanması üçün biz də QHT təmsilçisi olaraq bu prosesə ciddi şəkildə dəstək verməli, geniş iş aparmalıyıq. Əgər birlik olsa, təhlükənin qarşısını almaq olar.

## “Demokratik Azərbaycan Naminə” Gənclərin İctimai Birliyinin sədri Elməddin Behbud:

- 1976-cı ildə istifadəyə verilən “Metsamor” Atom-Elektrik Stansiyasının istismar müddəti 30 il nəzərdə tutulmuşdu. Beynəlxalq təşkilatların hesabatlarında göstərilir ki, “Metsamor” AES-də indiyədək 106 qəza baş verib. Burada diqqəti çəkən məsələlərdən biri də 2001-ci ildə Ermənistanın Avropa Şurasına qəbul olunarkən, qarşısına qoyulan tələblərdən biri də AES-in bağlanılması şərti idi. Ancaq enerji ehtiyaclarını qarşılamaq üçün alternativi olmadığından, Ermənistan bu günədək AES-i bağlamaqdan imtina edir. “Metsamor” AES-in nüvə tullantılarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində basdırılması haqqında faktlar mövcuddur. Eyni zamanda, AES-ə məxsus radioaktiv maddələrin satılması ilə bağlı da çoxsaylı məlumatlar var. Bu cür nüvə materiallarının bütün dünyanı terror aksiyaları ilə hədələyən, qlobal təhlükəsizliyi ciddi şəkildə təhdid olan “İŞİD”, “Əl-Qaidə” və digər bu kimi terror qruplaşmalarının əlinə düşəcəyi təqdirdə, üzləşə biləcəklərimizi təsəvvür etmək, düşünürəm ki, o qədər də çətin deyil.”Metsamor” Atom-Elektrik Stansiyasının hazırda təhlükəli vəziyyətdə olan və işləyən 2 enerji blokunun nəzərdə tutulan istismar resursu artıq tam tükənib. Bir çox beynəlxalq ekspertlər bəyan ediblər ki, elektrik enerjisi hasilatından bundan sonra da istifadə edilməsi stansiyanı Çernobıl AES-də, yaxud “Fukusima-1” AES-də baş vermiş qəzalara bənzər texnogen fəlakət həddinə yaxınlaşdırır. Uzun illərdir heç bir yenilənmə işləri aparılmayan “Metsamor” AES-də ciddi qəza baş verəcəyi təqdirdə Ermənistanın özü ilə bərabər, azı ətraf 4 ölkə üçün böyük fəlakət yaradacaq. Milyonlarla insan nüvə qəzasının yaratdığı fəsadlarla üz-üzə qalacaq. Unutmamalıyıq ki, regionda böyük miqyaslı fəlakətin baş verəcəyi halda, bu, bütün dünyanın faciəsinə çevriləcək, onun ağır nəticələrinə bütün dünya qatlaşmalı olacaq. Bu cəhətdən “Metsamor” AES-in doğurduğu təhlükə yalnız Ermənistanın deyil, bütün regionun vətəndaş cəmiyyəti institutlarını, beynəlxalq təşkilatları hərəkətə gətirməli və rəsmi İrəvandan təsirli addımların atılması tələb olunmalıdır. Bu baxımdan, şura sədri Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, deputat Azay Quliyevin “Metsamor” AES-lə bağlı QHT-lərin Beynəlxalq Koalisiyasının yaradılması təklifi çox faydalı və həyata keçirilməsi son dərəcə zəruri olan məsələdir. Xüsusilə vətəndaş cəmiyyəti institutlarının daha çox inkişaf etdiyi Türkiyə və Gürcüstanın QHT-ləri bu məsələyə münasibət bildirməli və koalisiyanın yaradılmasında fəal iştirak etməlidirlər. AES-lərin mövcud olduğu və bu sahədə xeyli təcrübəyə malik olan İran da artıq istismar müddəti bitmiş “Metsamor” AES-in fəaliyyətinin dayandırılması üçün Ermənistana təzyiq göstərməlidir. Biz əl-ələ verib, güclərimizi səfər edib növbəti “Çernobıl”, “Fukusima-1” faciəsinin təkrarlanmasına imkan verməməliyik.

***GÜLYANƏ***

# BSU-da “Qloballaşan dünya və Azərbaycan” I Respublika Tələbə Elmi Konfransının açılışı olub

***Bakı Slavyan Universitetində (BSU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Qloballaşan dünya və Azərbaycan” I Respublika Tələbə Elmi Konfransının açılış mərasimi olub. Tədbir Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil qoyulması ilə başlayıb.***



Mərasimdə çıxış edən BSU-nun rektoru, professor Asif Hacıyev əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş universitetin regionda tutduğu unikal mövqedən, Heydər Əliyevin ideyaları istiqamətində BSU-da görülən işlərdən danışıb. Rektor bildirib ki, Prezident İlham Əliyevin uğurlu dövlətçilik siyasəti nəticəsində hərəkətli inkişaf edən Azərbaycan gerçəkliklərinin, ölkədə mövcud multikultural və tolerant mühitin dünyaya çatdırılması üçün BSU-da silsilə tədbirlər keçirilir: “Əməkdaşlıq etdiyimiz universitetlərdə fəaliyyət göstərən mərkəzlərimiz ölkəmiz haqqında obyektiv məlumatın, Qarabağ həqiqətlərinin təbliği yönündə iş aparır, müştərək elmi layihələr həyata keçiririk. BSU-nun beynəlxalq münasibətlər və tərcümə fakültəsinin təşkilatçılığı ilə keçirilən “Qloballaşan dünya və Azərbaycan” I Respublika Tələbə Elmi Konfransı da bu yöndə atılan addımlardan biridir. A.Hacıyev Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş beynəlxalq forumlarda, konfranslarda, müsabiqələrdə Bakı Slavyan Universitetinin tələbələrinin fəallığından, qazandıqları uğurlardan danışıb. Gənclərin qlobal mövzuya dair keçirilən konfransda iştirakını yüksək qiymətləndirib, konfransın işinə uğurlar arzulayıb.

Beynəlxalq münasibətlər və tərcümə fakültəsinin dekanı, dosent Əsgər Əhməd konfransın işi barədə məlumat verib. Bildirilib ki, konfransda BSU-nun tələbələri ilə yanaşı, Bakı Dövlət Universiteti, Azərbaycan Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Musiqi Akademiyası, Qafqaz Universiteti, Odlar Yurdu Universiteti, Xəzər Universiteti, Azərbaycan Kooperasiya Universitetinin doktorantları, magistr və tələbələri, həmçinin Polşa və Ukraynadan olan tələbələr də iştirak edirlər. Qeyd edilib ki, elmi-praktik konfransa, ümumilikdə 139 tezis daxil olub.

Konfrans öz işini “Heydər Əliyev və müasirlik”, “Azərbaycanın xarici siyasəti və beynəlxalq münasibətlərin aktual problemləri”, “Azərbaycan multikulturalizmi”, “Azərbaycan tarixi, mədəniyyəti və təhsilin aktual problemləri”, “Tərcümənin aktual problemləri” və “Filologiyanın aktual problemləri” bölmələri ilə davam etdirib.

Sonda iştirakçılara sertifikat və konfrans materialları toplusu təqdim olunub.

***ZÜMRÜD***



**SAMİR**

# Dünyanın ən əclaf adamı və NİDA-çı

***İki gün öncə, bəlkə də dünyanın ən əclaf adamı ölmüşdü. Yas mərasimində iştirak etmək istəyim yox idi, əclaf ayaqlarım məni zorla apardı. Bütün əclaflar orada idi. Necə deyərlər, mən də ayaqlarımla iştirak edirdim, bir qədər oturub məclisdən, sözün həqiqi mənasında, uçdum. Molla ölünü o qədər təriflədi ki, ölmək istədim. Hamı gülürdü, ölənin pislik etdiyi adamlar da gəlmişdi. Sanki xınayaxdıda iştirak edirmiş kimi, yanaqları qıpqırmızı qızarmışdı. Kəsəsi, məclis yasa yox, ümidləri doğrulmuş insanların “qələbə” bayramına bənzəyirdi.***

Çox adamdan nə üçün güldüklərini soruşdum, cavab verən olmadı. Kimə sualı verirdimsə, əlini çiynimə qoyub, uğunub gedirdi. Axır cavab verən tapıldı. Sən demə, ölən adam məşhur sələmçi, faiz verən imiş, gülənlər də ona faizlə borcu olanlar... Ölənin oğlunun qılığına girib, rəhmətliyin borcluların adı olan dəftər qoyub-qoymadığını soruşurdular. Məlum oldu ki, rəhmətlik yazı da yaza bilmirmiş. Oğlu yanıb-yaxılırdı, əlini qapıya zollayıb, söz verdi ki, atasının sələm verdiyi adamların hamısını tapacaq. Bu rəhmətlik əvvəllər, sovet dövründə heç bir təhsili olmaya-olmaya həkim işləyirmiş, bütün xəstələri də eyni cür müalicə edirmiş. Ürək xəstəsinə mal təzəyini yandırıb qoxladırmış, dişi ağrıyana da qoz yarpağı dişləməyi məsləhət görürmüş. Böyrəkləri ağrıyan bir nəfərə məsləhət görüb ki, sağ böyrü üstündə yatmasın, ziyandır, sol böyrü üstündə yatmasın, ürəyi dayanar, arxası üstündə yatmasın, nəfəsi kəsilib ölər, qarnı üstündə yatmasın, yoxsa bağırsaqları dolaşar. Və beləcə, kişi 1 ay bu məsləhətə əməl edib, sonra yuxusuzluqdan dünyasını dəyişib. Rəhmətliyin o qədər pulu olub ki, hər corabının, işlənməyən qab-qaşıqların da içindən qırmızı yüzlüklər çıxırmış. Hamısı da haram pullar. Sələmlə gələn, vərəmlə gedər.

Məsələ bununla bitmədi, yas mərasimində daha sonra gördüklərim əsl biabırçılıq idi. Bir cavan oğlan gəldi, bu uşaq mənə hardansa tanış gəlirdi. Amma yadıma sala bilmirdim. Saqqalı yarımçıq, qaşında sırğa vardı, saçları didilmiş yun təsiri bağışlayırdı. Boyu 180 sm olan bu gəncin əynindəki şalvar o qədər qısa idi ki, cırıq-cırıq eləyib bitişdirsən, yarım metr olmazdı. Solumda duran tanışım, baş barmağını ondan sonrakı barmağının arasından keçirib mənə işarə verdi: “Ceyhun Bayramovdu bu gəncin adı, NİDA-çı..! Tanış gəlmədimi? NİDA-çı. Yaxşı bu gədənin yasda nə işi var, əlində narıncı padnos o tərəf-bu tərəfə şütüyürdü. Ölənin nəvəsi imiş. Adama deyərlər ki, ay əclafın nəvəsi, danışanda iqtidarı yeyib-talamaqda ittiham edirsən. Amma gorbagor babana qiymət vermirsən. Baban insanların haqqını kəsib sənə yedirdib, irin-çirk yemisən. Bundan da artıq olmayacaqsan ki. Üstündən bir müddət keçmişdi, şanapipik-Mehman Hüseynov gəldi, yanında da 5-6 nəfər şortikli gədə. Birinin dabanından qolbağı, birinin burnundan, qaşından sırğa, birinin da dodaqlarından “Fredom” yazılan klon sallanmışdı. Bəs dəli necə olur, dəlinin buynuzu-zadı olmur ki!?

10 dəqiqə sonra bu şanapipiklər bir yerə yığışıb, həbs olunan NİDA-çı Qiyas İbrahimovun evlərinə getməyi qərara aldılar. Adama 5 manatdan pul yığırdılar. Üz tutdular “Neftçilər”ə. Heyif ayaqlarıma...

TƏRS BAXIŞ

# 28 may, həmçinin müxalifətin paçlanmasını sübut edən gündür

## *Bu ənənənin təməli Novxanıdan qoyulub*

**28 May-Respublika Günü ərəfəsi, hər zaman olduğu kimi, növbəti dəfə ənənəvi müxalifət düşərgəsinin bir yerdə olmadığını sübut edir. Artıq belə bir qənaətə gəlmək mümkündür ki, sözügedən tarix, həmçinin düşərgənin parçalanmasını sübut edən gün kimi yadda qalıb. Xüsusilə, düşmən münasibətində olan müxalifət patiyaları - AXCP-Müsavat və həmin partiyaların diktəsi ilə idarə olunan digər qurumlar Respublika Gününü bir yerdə, barış və əməkdaşlıq şəraitində deyil, ayrı-ayrılıqda keçirməyi üstün tuturlar.**



### Hansı partiyanın ilk olaraq Novxanıda tədbir keçirməsi üstündə kəskin münaqişələr yaşanır

O da sirr deyil ki, bu təşkilatlar Novxanıda ADR-in qurucusu Məhəmməd Əmin Rəsulzadənin abidəsi önündə bayram tədbirini qeyd etmək üstündə ənənəvi savaşa qalxırlar. Daha dəqiq desək, hansı partiyanın ilk olaraq Novxanıda tədbir keçirməsi üstündə kəskin münaqişələr yaşanır. Düzdür, 2013-cü il prezident seçkiləri öncəsi "Milli Şura" adlı qondarma qurumda "əməkdaşlıq edən" AXCP-Müsavat yalnız həmin ildə bayram tədbirini birgə keçirmişdilər ki, hazırda məlum səbəblər üzündən "Milli Şura"dan çıxan Müsavat yenidən öz köhnə ənənəsinə sadiq qalaraq, yəni ayrılıqda olaraq Rəsulzadənin abidəsini ziyarət edəcək. Görünən isə budur ki, uzağı bir il bir yerdə olan müxalifət partiyaları bundan o yana birgə yol qət etmək gücündə və istəyində olmadıqlarını sözügedən addımları ilə sübuta yetirirlər.

### Onlar düşərgədə təmsil olunan qarşı tərəflərə "dostlarımız" deyə müraciət etsələr də, həmin kəlmənin söz demək xətrinə deyildiyi aşkar görünür

Xüsusilə, bir-birilərini ittiham edərkən, mətbuata bol-bol açıqlamalar verən müxalifət funksionerləri hakimiyyətlə yanaşı, özlərinə qarşı da radikallıq nümayiş etdirirlər. Baxmayaraq ki, onlar düşərgədə təmsil olunan qarşı tərəflərə müxtəlif məsələlərə fikir bildirdikləri zaman "dostlarımız" deyə müraciət etsələr də, həmin kəlmənin, sadəcə söz demək xətrinə deyildiyi aşkar görünür. Ortada heç bir dostluq münasibətləri yoxdur və əgər olsaydı, onlar ən azından, Respublika Günündə bir araya gəlməyi bacararaq, dediklərini sübuta yetirmiş olardılar. Ancaq göründüyü kimi, bu, baş vermir.

Düşərgə konkret şəkildə parçalanmış vəziyyətdə olduğu kimi, həm də düşmənçilik səviyyəsində münasibətlər çərçivəsindən çıxmağı bacarmayıb. Belə olan vəziyyətdə ənənəvi müxlaifətin hakimiyyət iddiası, yürüdülən siyasəti tənqid etmələri mənasızlıq, məntiqsizlik və istehza xarakteri daşıyır.

### ADP sədri Sərdar Cəlaloğlu: " Mövcud olan bloklar arasında isə münasibətlər arzu edilən səviyyədə deyil... Dostluq münasibətləri yoxdur"

Bu arada sözügedən düşərgənin təmsilçilərindən olan ADP sədri S.Cəlaloğlu da bu məsələyə münasibətini açıqlayaraq deyib ki, müxalif blok və təşkilatların 28 May-Respublika Günündə birlikdə Novxanıda tədbir keçirməsi mümkün deyil. Bunun üçün əsasların olmadığını deyən müxalifət partiyası sədrinin fikrincə, bu qüvvələr arasında müəyyən maraq ziddiyyətləri var və odur ki, onların Respublika Gününü birlikdə qeyd etməsi mümkün deyil. ADP sədri də xatırladıb ki, əslində, əvvəlki dövrlərdə bu qüvvələr birlikdə Novxanıda Rəsulzadənin abidəsini ziyarət etməyiblər. SİTAT: "Partiyalar hansı bloklarda təmsil olunurdusa, bu bloklardakı müttəfiqləri ilə birgə hərəkət edirdi. İndiki mərhələdə bu təşkilatların hamısının birlik nümayiş etdirməsinə ehtiyac yoxdur. Onsuz da ayrı-ayrılıqda gedirik və hamı öz ziyarətini həyata keçirir".

Yeri gəlmişkən, xatırladaq ki, Cəlaloğlu sədrlik etdiyi təşkilatı "Antiböhran Koalisiyası"na üzv yazdırıb və həmin qurumda "Azadlıq" VİP, "Ağ Blok", ADR hərəkatı və s. müxalifətçi siyasi təşkilatlar fəaliyyət göstərirlər. Onların hər birinin isə ayrı-ayrılıqda digər partiyalarla pis münasibətləri var.

S.Cəlaloğlu müxalifətin daha geniş konfiqurasiyada bir araya gəlməsi ehtimalı barədə səsləndirilən ayrı-ayrı fikirlərə də toxunaraq bildirib ki, hazırda belə bir vəziyyət mövcud deyil. ADP sədri deyib ki, ümumiyyətlə, hətta yaxın dövr üçün belə bir birliyin ortaya çıxması imkanları da yoxdur: "İndiki situasiya birliyi vacib qarşılamır. Hazırda müxalifət partiyaları fərqli bloklarda və qurumlarda birləşiblər. Mövcud olan bloklar arasında isə münasibətlər arzu edilən səviyyədə deyil. Bunun da obyektiv və subyektiv səbəbləri mövcuddur. Bloklar arasında təmaslar da mövcud deyil. Başqa sözlə, dostluq münasibətləri yoxdur".

### "Novxanı həqiqətləri" kontekstində yeni ittihamların, qarşıdurmaların və savaşların şahidləri olacağıq

Göründüyü kimi, müxalifət daxilində özünəməxsus çəkisi olan ADP sədri də etiraf edir ki, mətbuatda, sosial şəbəkələrdə bir-birilərini ittiham edərkən, qarşı tərəflərə "dostlarımız" deyə müraciət edən düşərgə təmsilçiləri bunu boğazdan yuxarı, görüntü xətrinə deyirlər. Ortada isə açıq-aşkar düşmənçilik mövqeyi dayanıb. Fakt isə, yuxarıda da qeyd edildiyi kimi, 28 May-Respublika Günü ərəfəsində onların bir-birilərinə qarşı sərgilədikləri düşmənçilik münasibətləridir.

Çox yəqin ki, biz bayram günü və ondan sonrakı bir neçə gündə "Novxanı həqiqətləri" kontekstində yeni ittihamların, qarşıdurmaların və savaşların şahidləri olacağıq. Çünki bu adət-ənənə müxalifətin qanına-canına hopub. Belə müxalifət üçün isə, heç bir sosial sifariş ola bilməz. Yaxşı olardı ki, onlar 28 May-Respublika Gününü özlərinin dəfn günü kimi qeyd etsinlər. Bu, ictimai rəy üçün daha məntiqəuyğun olardı...

**Rövşən RƏSULOV**

# Əli Kərimlidən Cəmil Həsənliyə "davay, dosvidaniya"...

## *AXCP sədri "Milli Şura" rəhbərini kənarlaşdırmaq üçün qəti qərara gəlib*

***Uzun müddətdir ki, AXCP sədri Ə.Kərimlinin "Milli Şura"nın rəhbəri C.Həsənlini özündən kənarlaşdırması ətrafında "baş sındırdığı" barədə informasiyalar dolaşsa da, hələlik onun bu istəyinin reallaşmadığını görməkdəyik. Daha dəqiq desək, AXCP sədri C.Həsənlidən yaxa qurtarmaq üçün "nə şiş yansın, nə kabab" prinsipini işə salıb. Əbəs yerə deyil ki, hələ ötən ayın əvvəllərində Kərimlinin professora istefa ərizəsini də yazdırdığı barədə məlumatlar yayılmağa başlamışdı. Bu məlumatlar sızar-sızmaz C.Həsənli bunun "yalan" olduğunu deyərək, diqqəti özündən yayındırmağa cəhd etdi. Ancaq onun bu cəhdinin uğursuz olması faktdır.***



### Cəmil Həsənli Əli Kərimliyə ağır "yük" olmağa başlayıb

Məsələn, bu günlərdə "Milli Şura"dakı etibarlı mənbədən belə bir məlumat əldə etmişik ki, yaxın günlərdə Həsənlinin istefa qərarı gözlənilmədən mediaya açıqlanacaq. Ortada isə bəzi maraqlı detallar mövcuddur. Mənbənin qeyd etdiyinə görə, onsuz da "Milli Şura"nın qeyri-rəsmi sədrliyini Ə.Kərimli edir. C.Həsənli isə, sadəcə Kərimlinin səhvlərini, müxtəlif ağırlıqlarını öz üzərinə götürür. Bunun üçün AXCP sədrinin ona əlavə xərcləri, maliyyə resursları istifadə olunur. Bu günə qədər dövlət əleyhinə səslənən hər bir bəyanat, hər bir çıxış arxasında Ə.Kərimlinin nəfəsinin olması şübhəsizdir. Sadəcə, bu çıxışlar C.Həsənlinin ağzından çıxır. Artıq müxalifətdaxili siyasi mühitdə elə də ciddi proseslər getmədiyi üçün, heç bir seçki amilinin ortada olmadığı üçün C.Həsənli Ə.Kərimliyə ağır "yük" olmağa başlayıb. Ona görə də Ə.Kərimli C.Həsənlinin istefasından dərhal sonra "Milli Şura"ya sədr keçməyi qətiləşdirib. Daha bir məqam isə AXCP-nin tamamilə sıradan çıxmasıdır. Kərimli parçalanmış və məhv olmuş AXCP-ni, məhz "Milli Şura"nın sayəsində ayaqda saxlamağa çalışır.

### Əli Kərimlinin Cəmil Həsənli barəsində ədlə etdiyi kompromatlar onun üçün fürsət olub

C.Həsənli və Ə.Kərimli arasındakı digər narazılığın Maqsud İbrahimbəyovun dəfnindən sonra yaşanması qeyd edilir. Narazılığı yaradan faktor isə "Milli Şura" sədrinin M.İbrahimbəyovun dəfn mərasimində iştirakına bağlanılsa da, məsələnin başqa tərəfinin olduğu deyilir. Məsələn, daha bir məlumata görə, C.Həsənli "Milli Şura"nın siyasi partiyaya çevirmək üzərində layihə hazırlayıb. Ancaq Ə.Kərimlidən xəbərsiz. "Milli Şura"nın partiyaya çevriləcəyi təqdirdə, C.Həsənli avtomatik olaraq ona sədr seçiləcəkdi. Hətta C.Həsənliyə koordinasiya şurasının bir neçə üzvü sözügedən planın reallaşdırlması istiqamətində gizli yardımlar da göstərib. Baş verənlər barədə bir müddət məlumatsız olan Ə.Kərimli həmin cəhdlər barədə eşidər-eşitməz C.Həsənlinin "Milli Şura"dan uzaqlaşdırılması istiqamətində aşkar addımlar atmağa başlayıb. Bu məlumatlar, kompromatlar həm də onun üçün bir fürsət olub.

### Cəmil Həsənli anlayır ki, Əli Kərimli özünün cəsarət edə bilmədiyi ən pis işlərin hamısını ona gördürüb, bütün oyunlarında ondan maksimum şəkildə yararlanıb

Biz hazırkı məqamda yalnız Ə.Kərimli-C.Həsənli timsalında deyil, digər qurum üzvləri arasında da narazılıqların yaşandığını görməkdəyik. Yeri gəlmişkən, daha bir faktı xatırlatmaq yerinə düşərdi ki, C.Həsənli-Ə.Kərimli qarşıdurması birinci dəfə baş vermir. Vaxtilə AXCP-dən istefa vermiş Həsənli bunu Kərimlinin xəyanətlərinə görə etdiyini bəyan etmişdi. İndi də eyni halın yaşanması şübhə doğurmur. C.Həsənli anlayır ki, Ə.Kərimli özünün cəsarət edə bilmədiyi ən pis işlərin hamısını ona gördürüb, bütün oyunlarında ondan maksimum şəkildə yararlanıb. Bu gün isə C.Həsənli amili Ə.Kərimlini qane etmir. Ona görə də getməyinin vaxtı çatıb. Əli Kərimlinin Cəmil Həsənli üçün "davay, dosvidaniya" meyxanasının sifarişi artıq verilib. Bu gediş baş tutduqdan sonra isə hadisələrin hansı istiqamətdə cərəyan edəcəyini zaman göstərəcək.

**Rövşən NURƏDDİNOĞLU**

# Maks Veber və dini etiqad azadlığı

***Görkəmli alman filosofu və sosioloqu Maks Veber yüzilliyin astanasında bu suala "yox" cavabını verirdi. Veberin fikrincə, kapitalizm və demokratiyanın uğurlu inkişafı üçün insan xüsusi mədəniyyətə - həyata münasibətdə rasional və tənqidi baxışa, eləcə də, protestantizm dini təlimi və dini praktikası vasitəsilə təşəkkül tapmış əməyin kapitalist etikasına yiyələnməlidir.***

Veber yazırdı ki, kapitalizm münasibətləri Qərbdə uydurulmayıb, bunlar bütün sivilizasiyaya xasdır, ancaq protestant kapitalizminin əsaslı fərqi əməyə xüsusi münasibətdədir. Digər mədəniyyətlərdə "insan yaşamaq üçün işləyir, protestantlar isə işləmək üçün yaşayırlar". Çünki kalvinistlərin dini təliminə görə, Allaha sonsuz dualar deyil, uğurlu, Allah-Taalanın adını şöhrətləndirəcək əmək xoşdur və əgər insanın əməyi uğurludursa - ona var-dövlət gətirirsə, ümid edə bilər ki, cənnətdə əbədi həyat üçün Allah məhz onu seçib. Protestantizmin yayılmasından yüzilliklər sonra əmək etikasının dini motivi, demək olar ki, unudulmuşdu. Lakin Veberin yazdığı kimi, əməyə xüsusi münasibət Qərb insanı psixologiyasında özünə möhkəm yer eləmişdi.

Veberin uğurlu kapitalizm və sabit demokratiyanın protestant etikası ilə əlaqəsi haqqındakı nəzəriyyəsi dəfələrlə tənqid hədəfinə çevrilmişdi. Veberin opponentləri buna istinad edirdilər ki, 19 - 20-ci yüzilliklərdə dünyada katolik Fransası, İtaliyası və İspaniyası, yaxud 20-ci əsrin sonlarında xristian ənənələrinə büsbütün yad olan Sakit okean bölgəsi ölkələri və müsəlman Türkiyəsi kimi uğurla inkişaf edən kapitalist ölkələri peyda olmuşdu.

Veberin özü və onun tərəfdarları buna belə cavab verirdilər ki, inkişaf edən qeyri-protestant ölkələr, çox güman ki, öz mədəniyyətlərində əvvəllər gizli qalan ehtiyatları üzə çıxara bilmiş və bu, onlara protestant etikasına bənzər əmək etikasını formalaşdırmağa imkan vermişdir.

Veberin nəzəriyyəsi Marksın da mənsub olduğu fəlsəfi məktəbə meydan oxumaq demək idi. Marks iddia edirdi ki, şüuru maddi varlıq təyin edir. Veber isə bunun tam əksini sübut edirdi - protestantizm ideyası Qərb ölkələrinin maddi inkişafını təmin etmişdir.

Hətta biz Veberlə razılaşmalı olsaq ki, protestant ölkələrinin inkişafını, məhz dini reformasiya irəlicədən müəyyən etmişdir, bu halda da inkişaf probleminin əsas sirri yenə açılmamış qalacaqdır. Axı indiyədək aydın deyildir ki, nə üçün reformasiyanı, məhz Şimali Avropanın almandilli xalqları birinci olaraq (hələ 16-cı əsrdə) həyata keçirmişlər? Nə üçün Cənubi və Şərqi Avropa xalqları bu reformasiyanı rədd etmişdir? Nə üçün katoliklər öz dinləri daxilində liberal islahatı yalnız 20-ci yüzilliyin ortalarında həyata keçirə bilmişlər? Bəs nə üçün pravoslav xristianlar, eləcə də müsəlmanlar indiyəcən öz dinlərində reformasiya aparmamışlar?

Hər necə olsa da, ümumi rəyə görə, Veberin "Protestant etikası və kapitalizm ruhu" əsəri Qərb insanının davranış motivlərini və Qərb cəmiyyətinin xüsusiyyətlərini anlayıb dərk etmək üçün əvəzolunmaz mənbə sayılmalıdır.

Maks Veber yazır: "Əhalisinin müxtəlif dinlərə mənsub olduğu istənilən ölkənin peşəkar statistikası ilə tanışlıq zamanı katolik mətbuat və ədəbiyyatında, həmçinin Almaniyanın katolik qurultaylarında dəfələrlə müzakirə olunmuş bir məsələ diqqəti cəlb edir. Biz protestantların kapital yiyələri və sahibkarlar arasında, həmçinin yüksək ixtisaslı fəhlə təbəqələri, hər şeydən əvvəl isə müasir müəssisələrin ali-texniki və kommersiya personalı içərisində şəksiz çoxluq təşkil etdiklərini nəzərdə tuturuq. Bu, yalnız dini müxtəlifliklə milli müxtəlifliyin üst-üstə düşdüyü və buradan da, məsələn, Şərqi Almaniyanın alman və polyak əhalisinin nümunəsində olduğu kimi, müxtəlif mədəni inkişaf səviyyəsinin üst-üstə düşdüyü ölkələrdə deyil, çiçəklənmə dövründə kapitalizmin öziinə zəruri sosial və peşəkar dəyişiklikləri maneəsiz həyata keçirdiyi hər yerdə əksini tapmışdır. Bu proses isə nə qədər sürətlə gedibsə, dini statistika da bu hadisəni o qədər aydınlıqla əks etdirib.

Düzdür, kapital yiyələri, iri ticarət-sənaye müəssisələrinin rəhbərləri və yüksək ixtisaslı fəhlələr içərisində protestantların nisbi çoxluq təşkil etməsi... qismən kökləri ilə uzaq keçmişə gedən tarixi səbəblərlə izah olunur... Müəyyən iqtisadi funksiyaların yerinə yetirilməsi ya kapitalın, ya da bahalı təhsilin, çox vaxt isə hər ikisinin olmasını tələb edir. Hazırda bu funksiyalar irsi sərvətlə, yaxud hər halda məlum var-dövlətlə bağlıdır. 16-cı əsrdə imperiyanın bir çox varlı vilayətləri (onlar, əsasən, əlverişli təbii şəraitə və ticarət yollarının yaxınlığına görə varlanmışdılar), o cümlədən varlı şəhərlərin əksəriyyəti protestant etiqadını qəbul etdilər. Bu faktın nəticələri bu günə qədər hiss olunur və protestantların yaşamaq və iqtisadi inkişaf uğrunda mübarizəsinə yardım edir. Lakin burada tarixi xarakterli bir sual ortaya çıxır: iqtisadi cəhətdən inkişaf etmiş vilayətlərin kilsə inqilabına bu qədər güclü rəğbətinin səbəbi nədir? Bu suala cavab vermək ilk baxışdan göründüyü qədər də asan deyil. Əlbəttə, iqtisadi ənənəçiliklə əlaqənin kəsilməsi dini ənənələrin toxunulmazlığına şübhələri, ümumiyyətlə, ənənəvi avtoritetlərə qarşı üsyan meyilini xeyli gücləndirməli idi. Lakin çox vaxt unudulan bir şeyi nəzərdən qaçırmaq olmaz. Reformasiya kilsənin gündəlik həyatda hökmranlığının aradan qaldırılmasını deyil, həmişəki hökmranlıq formasının başqası ilə əvəz olunmasını nəzərdə tutur və həm də ağır olmayan, demək olar ki, hiss edilməyən, çox vaxt az qala formal xarakter daşıyan hökmranlıq bütün davranışları ən yüksək səviyyədə, ağır və sərt çərçivələrə salan, şəxsi və ictimai həyatın bütün sahələrinə nüfuz edən hökmranlıqla əvəz olunurdu. "Dönükləri cəzalandıran, lakin günahkarları bağışlayan (əvvəllər indikindən daha çox) katolik kilsəsinin hökmranlığı ilə bu gün tam müasir iqtisadi quruluşa malik olan xalqlar razılaşırlar, onunla 15-ci və 16-cı əsrlərin kəsişməsində ən varlı, iqtisadi cəhətdən daha çox inkişaf etmiş ölkələr də razılaşırdılar. Kalvinizmin 16-cı əsrdə Cenevrə və Şotlandiyada, 16-cı əsrin axırında və 17-ci əsrin əvvəlində Niderlandın böyük hissəsində, 17-cı əsrdə Yeni İngiltərədə, bəzən isə İngiltərənin özündə hökmranlığını indi biz şəxsiyyət üzərində ən dözülməz kilsə nəzarəti kimi qəbul edərdik. Məhz o vaxtın iqtisadi cəhətdən daha çox inkişaf etmiş ölkələrinin, bu ölkələrdə isə (sonrakı şərhdə görəcəyik), məhz iqtisadi yüksəlişin daşıyıcıları - orta "burjua siniflərinin nəinki o vaxta qədər görünməmiş puritan tiraniyası ilə razılaşmasını, hətta o vaxta qədər və sonralar da bir daha göstərmədikləri qəhrəmanlıqla müdafiə etmələrini bəs nə ilə izah etmək olar? Bu, Karleylin haqlı olaraq dediyi kimi, "the last of our heroism" (qəhrəmanlığımızın son təzahürü - ing.) idi".

Müəllifin fikrincə, sonra ən əsası: ...katolik abituriyentlər arasında texniki və ticarət-sənaye fəaliyyəti, ümumiyyətlə, burjua sahibkarlığına hazırlayan təhsil müəssisələrini qurtaranların faizi protestantlara da nisbətən xeyli aşağıdır - katoliklər klassik gimnaziyaların humanitar hazırlığına üstünlük verirlər və bu faktı heç cür yuxarıda deyilən səbəblə izah etmək olmaz... Müasir iri sənayedə çalışan yüksək ixtisaslı fəhlələrin arasında katoliklərin azlıq təşkil etməsi də bunu əyani surətdə göstərir... Bu halda, ortaya belə bir səbəb əlaqəsi çıxır: tərbiyə, xüsusilə tərbiyənin vətən və ailənin dini mühiti ilə şərtlənən istiqaməti ilə aşılanmış xüsusi psixi xarakter peşənin seçilməsi və sonrakı peşə fəaliyyətini müəyyən edir...

Hər şeydən əvvəl, aydınlaşdırmalıyıq ki, adları çəkilən dini etiqadların xüsusiyyətlərinin hansı ünsürləri yuxarıda göstərilən istiqamətlərdə təsir göstərmişdir və göstərməkdə davam edir...

İngilis, holland və amerikan puritanları (16-cı əsrdən radikal protestant sektaları - red.) "şən həyatı" inkar etməklə səciyyələnirdilər. Bir azdan görəcəyik ki, onların, məhz bu xüsusiyyəti tədqiqatımız üçün daha vacibdir. Məsələn, fransız protestantizmi uzun müddət (müəyyən dərəcədə, hətta bu günə qədər) kalvinist kilsənin xarakterini saxlamışdır... Lakin buna baxmayaraq, yaxud ola bilər ki, məhz buna görə o, məlum olduğu kimi, Fransanın sənaye və kapitalist inkişafını şərtləndirən amillərdən olmuşdur. Əgər ciddiliyi və həyat tərzinin, bütövlükdə dini maraqlara tabe etdirilməsini "tərki-dünyalıq" adlandırsaq, onda təsdiq etməliyik ki, o vaxtdan indiyə qədər bu ideyanın qızğın tərəfdarları olan fransız kalvinistləri dini, məsələn, dünyanın istənilən xalqından artıq qiymətləndirən Şimali Almaniyanın katoliklərindən heç də çox tərki-dünya olmamışlar. Hər ikisi hakim dini partiyalardan eyni dərəcədə fərqlənir: həm aşağı təbəqələrində həyat eşqi ilə dolu, yuxarılarında isə dinə açıq düşmən mövqedə olan fransız katoliklərindən, həm də məzhəbini dünyəvi işlərin içərisində unutmuş və dini biganəliyi ilə seçilən alman protestantından...

Diqqəti özünə çəkən bir sıra məsələni nəzərə almaq lazımdır. Məsələn, tərki-dünyalıq, asketizin və kilsə möminliyi ilə kapitalist sahibkarlığı arasında nisbətin yerlərinin dəyişdirilməsinə ehtiyac yoxdur ki?

Bu cür yerdəyişmə harada meydana gəlməsindən asılı olmayaraq həmişə kalvinizmdə müşahidə olunur... Hələ ispanlara məlum idi ki, "dönüklük (yəni Niderland kalvinizmi) "ticarət" ruhunun inkişafına imkan yaradır... Burada göstərilən bir neçə misal artıq tam sübut edir ki, oyanışın, adətən, protestantizmlə bağlanıldığı "əmək fəaliyyəti" ruhunu, "tərəqqini" və s. "həyat sevinci kimi başa düşmək lazım deyildir və ümumiyyətlə, ona "maarifçi məna" vermək düzgün deyildir. Lüter, Kalvin, Noks və Foetin protestantizmi indi "tərəqqi" adlandırılan şeydən çox uzaq idi.

M.Veber qeyd edir ki, başlıqda bir qədər iddialı səslənən anlayış - kapitalizm ruhu verilir. Bu anlayış altında nə başa düşülməlidir?..

Bu məqsədlə xatırlanan "ruha aid sənəddən" - bizi maraqlandıran məsələni, demək olar ki, klassik aydınlıqla əks etdirən sənəddən istifadə edək...

Bu sənəddə deyilir: "Yadında saxla ki, vaxt puldur, kim ki, hər gün on şillinq qazana bilir, lakin günün yarısını boş gəzintiyə, yaxud evdə tənbəlliyə sərf edir və özünə yalnız altı pens xərcləyirsə, təkcə bu xərci nəzərə almamalı və bilməlidir ki, ondan başqa daha beş şillinq xərcləmiş, daha doğrusu, çölə atmışdır. Yadında saxla ki, kredit - puldur. Kim ki, öz pullarını daha bir neçə müddətə məndə saxlayır, bu vaxt ərzində qazana biləcəyim faizi mənə bağışlayır...

Yadında saxla ki, pul təbiətcə bar verəndir və yeni pul yaratmağa qadirdir. Pul pul törədə, onun törəmələri isə daha çox törədə bilər...

Bu məsələni yadda saxla: borcunu vaxtında ödəyən adama başqalarının pul kisəsi həmişə açıqdır. Borcunu vaxtında qaytaran adam öz dostlarından həmin vaxt onlara lazım olmayan pulları borc götürə bilər.

Bu isə çox sərfəlidir. Çalışqanlıq və sadəliklə yanaşı, dəqiqlik və ədalətlilik kimi heç nə cavanlara cəmiyyətdə hörmət qazanmağa kömək etmir...

Nəzərə alınmalıdır ki, ən əhəmiyyətsiz şeylər də kreditə təsir göstərir. Sənin çəkicinin səsini sənə borc verən səhər saat 5-də və axşam saat 8-də eşidirsə, bu, onun inamını daha altı ay müddətinə uzadır, ancaq əgər o, səni bilyard stolu arxasında görsə, yaxud iş vaxtı sənin səsini meyxanadan eşitsə, onda elə səhərisi gün borcu sənin yadına salar və pulunun olmadığı vaxtda öz pullarını geriyə tələb edər...

...Xərcinin və gəlirinin dəqiq hesabını apar. Əgər hər xırda şeyə diqqət yetirməyin əziyyətinə qatlaşsan, aşağıdakı gözəl nəticə alınacaqdır: görərsən ki, necə xırda məsrəflər böyük məbləğə çevrilir və görərsən ki, nəyi keçmişdə qənaət etmək olardı və nəyi gələcəkdə qənaət etmək olar..."

Bencamin Franklin belə tövsiyə edir və onun tövsiyələri "Amerika mədəniyyətinin surətinə çox yaxındır... Borcunu qaytarmağa qadir olan nəcib adam onun idealıdır. Onun fikrinə görə, belə adam kapitalının daim artmasına məqsəd kimi baxmalıdır. Məsələnin mahiyyəti ondadır ki, burada adi məişət davranışı qaydaları təbliğ edilmir, xüsusi "etika" şərh olunur və ondan kənara çəkilmək təkcə axmaqlıq kimi deyil, həm də müəyyən mənada vəzifə borcunun yerinə yetirilməməsi kimi qiymətləndirilir..."

Müasir təsərrüfat həyatında hökmranlığa nail olmuş kapitalizm iqtisadi seçim yolu ilə özünə zəruri olan təsərrüfat subyektlərini - sahibkarları və fəhlələri tərbiyə edir və yaradır. Amma məhz burada tarixi hadisələri izah etmək üçün "seçim" anlayışının tətbiq olunma hədləri tam aydınlığı ilə görünür. Həyat tərzi və peşəyə münasibət sahəsində kapitalizmin xüsusiyyətinə uyğun "seçimin baş verməsindən..." yəni müəyyən davranış və təsəvvür növlərinin digərləri üzərində qələbə çalmasından ötrü o, əlbəttə, əvvəlcə meydana gəlməli, özü də ayrı-ayrı, bir-birindən təcrid olunmuş şəxsiyyətlərin simasında deyil, daşıyıcılarının insan qrupu olduğu dünya baxışı kimi meydana gəlməlidir... Tarixi materializmin iqtisadi münasibətlərin "əks olunması", yaxud "üstqurumu" kimi "ideyaların" meydana gəlməsi haqqında sadəlövh təsəvvürlərinə gəldikdə isə, onların üzərində təfərrüatı ilə dayanacağıq...

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 24 may

## Stresdən kirpinin iynələri töküldü

Britaniyanın Hartfordşir qraflığında Derek ləqəbli kirpinin stresdən iynələri tökülüb. İynələrinin yenidən çıxması üçün ona özəl masaj tətbiq olunub. Veterinarların özəl baxımından sonra kirpinin durumu düzəlib. Lenta.ru saytının xəbərinə görə, kirpi yerli evlərdən birinin həyətində atılmış və baxımsız durumda tapılıb. Zoohəkimlər onda alopesiya adlı xəstəliyin əlamətlərini aşkar ediblər ki, bu da ciddi streslər və iynələrin tökülməsi ilə müşayiət olunur. İlkin müdaxilə nəticəsində kirpinin kürəyindəki iynələr bərpa olunmağa başlayıb. Bu, ötən ilin sentyabrından bu günə qədər çıxan ilk iynələrdir. Amma həkimlər kirpini yenidən vəhşi təbiətə qaytarmağı düşünmürlər. Onlar deyir ki, kirpinin iynələri bərpa olunmamış bunu etmək doğru deyil.



## Çox mesajlaşan şəxslər etik dəyərlərə daha az önəm verirlər

İngiltərədəki Vinnipeq Universitetinin araşdırmasına görə, cib telefonu ilə mesajlaşma insanlar arasındakı münasibətlərə pis təsir edir. Belə ki, mesaja önəm verən şəxslərdə özünə arxayınlıq hissi azalır, lüksə daha həris olurlar. Araşdırmada Vinnipeq Universitetinin psixologiya fakültəsində oxuyan 2300 tələbədən alınan rəylər üç il boyunca yığılıb. Araşdırma nəticəsində çox mesajlaşan gənclərin çox sürətli və səthi düşündüyü ortaya çıxıb. Bundan başqa, tez-tez mesajlaşan gənclərin əxlaqi, estetik və ruhsal məqsədlərə az, imic və varlılığa isə çox dəyər verdiyi sübut edilib. Araşdırmaya görə, gündə 100-dən artıq mesaj yazan bir adam 50 və daha az mesaj göndərənlərlə müqayisədə etik dəyərlərə, yaşam prinsipinə 30 faiz daha az önəm verirlər. Bundan başqa, cib telefonu ilə mesajlaşan tələbələrin azlıq qruplara münasibətdə daha dözümsüz olduğu da üzə çıxıb.



## Elvis Preslinin gitarası 334 min dollara satıldı

Əfsanəvi müğənni Elvis Preslinin gitarası rekord məbləğə satılıb. Lent.az-ın anspress-ə istinadən məlumatına görə, Nyu-Yorkda keçirilən hərracda 334 min ABŞ dollarına satılan gitaranı 1969-cu ildə müğənniyə atası hədiyyə edib. Vernon Presli oğluna "Gibson Dove" gitarasını Elvisin karate üzrə qara kəmər qazanmasından sonra bağışlayıb. Şimali Karolinanın Aşvil şəhərində keçirilən konsertdə çıxış edən Elvis gitaranı pərəstişkarlarından birinə hədiyyə edib və həmin şəxs onu bu günədək qoruyub saxlayıb. Musiqi aləminin ulduzlarının əşyalarını "Julien's" hərrac evi satışa çıxarıb. Satılanlar arasında Con Lennonun üzərində "Being for the Benefit of Mr. Kite" mahnısının sözlərini yazdığı kağız olub. Kağıza görə naməlum alıcı 354,4 min dollar ödəyib. Maykl Ceksonun 1996-97-ci illərdə geyindiyi vinil pencək isə 256 min dollara satılıb. Elvis Presli məşhur amerikalı müğənni və aktyordur. Ölümündən otuz ildən artıq vaxt keçməsinə baxmayaraq Elvis Presli bu gün də dünyanın ən məşhur və tanınmış müğənniləri sırasındadır. Müğənni kimi onun rekordlarını (kasset satışı, pərəstişkar kütləsi və s.) hətta indi də dünyanın ən tanınmış estrada müğənniləri yeniləyə bilmirlər. O, bütün dünyada bu gün də "rok-n-rol-lun kralı" kimi yad edilir.



## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici ixtisası üzrə I tədris ilinin tələbəsi Bayramova İnara Fərail qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Van Qal getdi, Mourinyo gəlir



"Mançester Yunayted" baş məşqçisi Lui van Qalla yollarını ayırıb. Qol.az-ın Britaniya mətbuatına istinadən verdiyi məlumata görə, Mançester təmsilçisi 64 yaşlı mütəxəssislə müqaviləni ləğv edib. Bu səbəbdən "qırmızı şeytanlar"ın hollandiyalı mütəxəssisə 6,5 milyon avro təzminat ödəyəcəyi bildirilir. Van Qalı "Çelsi"nin sabiq çalışdırıcısı Joze Mourinyonun əvəzləyəcəyi gözlənilir. Britaniya mətbuatının yazdığına görə, Mourinyo "Mançster Yunayted"lə 5 illik müqavilə imzalayacaq və portuqaliyalı mütəxəssis yeni komandasında ilinə 15 milyon avro qazanacaq. Qeyd edək ki, 2014-cü ildə "Mançester Yunayted"lə 3 illik müqavilə imzalayan van Qalın komandası ötən mövsüm Premyer Liqada 5-ci olsa da, Federasiya kubokunu qazanıb. Onun komandadan göndərilməsi ilə bağlı xəbərin rəsmən açıqlanacağı gözlənilir.

## Taekvondoçularımız Avropa çempionatından 3 medalla qayıdır



İsveçrənin Montrö şəhərində böyüklər arasında keçirilən Avropa çempionatına yekun vurulub. AZƏRTAC xəbər verir ki, yarışın sonuncu günü kişilərdən ibarət yığma komandamızın iki üzvü - Payam Qobadi Oğaz (87 kq) və Radik İsayev (87 kq+) mübarizəyə qoşulub. Xorvatiyalı Nikola Bojo, fransalı MBar NDiaye və Britaniya idmançısı Damin Samsunu məğlub edən Payam Qobadi Oğaz yarımfinalda rusiyalı Vladislav Larinlə qarşılaşıb. Finala vəsiqə uğrunda döyüşdən məğlub ayrılan həmyerlimiz yarışın bürünc medalı ilə kifayətlənib. Radik İsayev isə elə ilk döyüşündə ukraynalı idmançı Mixailo Şelesta minimal hesabla (4-5) məğlub olaraq çempionatı tərk edib. Beləliklə, komandamız 37 ölkədən 387 taekvondoçunun qatıldığı Avropa çempionatında 3 medal qazanıb. Qeyd edək ki, yarışın əvvəlki günlərində Milad Beigi Harçeqani (80 kq) qızıl, Patimat Abakarova (53 kq) isə gümüş medal əldə edib. Avropa çempionatında ölkəmizi hakim qismində Azərbaycan Taekvondo Federasiyasının (ATF) baş hakimi Elşən Quliyev təmsil edib.

## "Yuventus" "Barselona"nın təklifini rədd etdi



"Yuventus"un hücumçusu Paulo Dibala "Barselona"nın maraq dairəsinə düşüb. Qol.az-ın "Football İtalia"ya istinadən verdiyi məlumata görə, Kataloniya təmsilçisi artıq İtaliya klubuna rəsmi təklif göndərib. "Barselona" argentinalı futbolçu üçün 90 milyon avrosundan keçməyə hazır olsa da, Turin təmsilçisi bu təklifi rədd edib. 22 yaşlı futbolçunun da "Yuventus"da qalmaq istədiyi bildirilir. Qeyd edək ki, Dibala ötən yay 32 milyon avro müqabilində "Palermo"dan "Yuventus"a transfer olunub.

## İdmançılarımız beş qızıl medal qazanıblar



Batumidə Dünya Döyüş Növləri Oyunlarına yekun vurulub. AZƏRTAC xəbər verir ki, Azərbaycanın kempo döyüş növləri üzrə komandası yarışda 5 medal qazanıb. İyirmi səkkiz ölkədən idmançıların iştirak etdiyi turnirdə Toğrul İbrahimli (55 kq, MMA), Cavid Allahverdiyev (61 kq, MMA), Xəyal Məmmədzadə (75 kq, qrapplinq), Ülvi Sadıqzadə (80 kq, qrapplinq) və Orxan Əlizadə (open, qrapplinq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar və komanda hesabında 3-cü yerə sahib olublar. Mötəbər turnirdə komandamıza Beynəlxalq Kempo Federasiyasının ölkəmizdəki səlahiyyətli nümayəndəsi, Azərbaycan Kempo Təşkilatının rəhbəri Rauf İbrahimov başçılıq edib.

## Ən qocaman olimpiya çempionu vəfat edib

Macarıstan KİV-lərinin verdiyi məlumata görə, 1936-cı ildə olimpiya çempionu olmuş Şandor Tariks 102 yaşında vəfat edib. Həmin olimpiya oyunlarında Şandor Tariks su polosu üzrə Macarıstan yığmasının heyətində qızıl medal qazanmışdır. Macar çempionun vəfatından sonra hazırda sağ-salamat olan ən qocaman olimpiya çempionu yelkən idmanında olimpiadanın qızıl medalını qazanmış 98 yaşlı Dervard Noulsdur. Şandor Tariks vəfat etdiyi anda dünyada ən qocaman olimpiya çempionu, habelə müharibədən əvvəlki olimpiya oyunlarının sağ-salamat olan yeganə qalibi idi.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500